QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 020 (5492) 1 **fevral** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azərbaycan iqtisadiyyatı 2018-ci ildə də uğurla inkişaf edəcək

*Prezident İlham Əliyev: "Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir"*



Səh 2


Ölkə başçısının həyata keçirdiyi islahatların təməlində Azərbaycan vətəndaşı dayanır



3

Natiq Əmirov: "Davos Forumunda Azərbaycana və Prezident İlham Əliyevə çox böyük maraq var idi"



4

"Əhalinin sağlamlığı hər zaman dövlət başçısının xüsusi diqqət mərkəzindədir"



6

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib



7

"Dəllallıqla məşğul olan turizm şirkətləri məsuliyyətə cəlb olunacaq"



7

Dini radikalizmlə mübarizədə dini icmaların üzərinə böyük məsuliyyət düşür



10

10

"Son 14 il müasir Azərbaycanın inkişaf tarixində mühüm dövrdür"



13

Müxalifət partiyalarındakı istefaların hər biri eyni mövqeni əks etdirir

16

Zlatan İbrahimoviç "Los-Anceles Qelaksi" ilə müqavilə imzalayıb



# Azərbaycan iqtisadiyyatı 2018-ci ildə də uğurla inkişaf edəcək

## *Prezident İlham Əliyev: "Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir"*



Azərbaycanın sosial-iqtisadi inkişafı sahəsində müəyyən olunmuş siyasət respublikamıza uğurlar gətirməklə yanaşı, onun dünya miqyasında imicini də yüksəldib. Ümummilli Lider Heydər Əliyevin siyasi və iqtisadi kursunu uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq, ölkənin davamlı iqtisadi inkişafı təmin edilib və bölgələr arasında regional tarazlıq bərpa olunub. Son 14 il ərzində Azərbaycanda aparılan uğurlu iqtisadi islahatlar kompleks inkişafımıza gətirib çıxarıb. Uğurlara imza atan Azərbaycanın beynəlxalq nüfuzu artmış və inkişaf etmiş dövlətlər sırasındadır. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib: "Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. Azərbaycanın beynəlxalq nüfuzu artdı, ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Ölkəmizdə təhlükəsizlik və sabitlik təmin edilir. Sabitliyin mənbəyi isə, Azərbaycan xalqının iradəsidir, xalq-iqtidar birliyidir".

### "BU GÜN İNKİŞAF PARAMETRLƏRİNƏ VƏ VƏTƏNDAŞ HƏMRƏYLİYİNƏ GÖRƏ AZƏRBAYCAN DÜNYADA NÜMUNƏVİ ÖLKƏLƏRDƏN BİRİDİR"

Dayanıqlı iqtisadi inkişafla yanaşı, demokratikləşmə prosesinin sürətləndirilməsi və vətəndaş cəmiyyəti quruculuğu prosesinin başa çatdırılması müasir Azərbaycan milli ideyasının tərkib hissəsi kimi nəzərdən keçirilir. Azərbaycanın iqtisadi dayanıqlılığının təmin olunmasında, sözsüz ki, investisiya qoyuluşunda ölkədə yaradılmış siyasi sabitlik mühüm əhəmiyyətə malikdir. Dövlət başçısı İlham Əliyevin vurğuladığı kimi: "Sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir. Bu, həqiqətdir və yaxın tarixin nəticələri, bölgəmizdə yaşanan böhranlı vəziyyət bunu təsdiqləyir. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə, Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir".

Azərbaycanın iqtisadi qüdrətinin yüksək dinamizmlə artmasının nəticəsidir ki, son 14 il ərzində 231 milyard dollar daxili və xarici sərmayə qoyulmuşdur. Bu, böyük nailiyyətlərin əldə edilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə güclü siyasətin, düşünülmüş strategiya və taktikanın, iqtisadi islahatların həyata keçirilməsi, siyasi iradənin olması, ölkədə güclü maliyyə-iqtisadi potensialının yaradılması, enerji, nəqliyyat, ərzaq və iqtisadi təhlükəsizliyin təmin edilməsi hesabına mümkün olmuşdur. Bu böyük uğurların bir səbəbi də, ölkə başçısı İlham Əliyevin yeni idarəetmə modeli sayəsində, ölkəni elmi surətdə əsaslandırılmış çoxsaylı dövlət proqramlarının vasitəsi ilə idarə etməsidir. Prezident İlham Əliyev çıxışında lider dövlətlər sırasında olan Azərbaycana xarici dövlətlərin investisiya qoyuluşunun ölkəmizə olan böyük inamdan irəli gəldiyini və dinamik inkişaf edən dövlətimizin 2018-ci ildə iqtisadi inkişaf ili olacağını vurğulayıb: "On dörd il ərzində ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuşdur. Bunun yarısı xarici, yarısı isə daxili sərmayədir. Adambaşına düşən sərmayələrin həcminə görə, Azərbaycan yenə də dünya miqyasında lider dövlətlər arasındadır. Xarici sərmayənin qoyuluşu, əlbəttə ki, hər bir ölkə üçün ən vacib amillərdən biridir. Eyni zamanda, bu, onu göstərir ki, ölkəyə inam var, ölkənin siyasətinə dəstək var, ölkənin gələcəyinə ümidlər çox böyükdür. Çünki gələcəyi müəyyən olunmayan, yaxud da ki, qaranlıq olan ölkələrə heç kim, heç bir sahibkar, heç bir dövlət, heç bir şirkət investisiya qoymaz. Ona görə 231 milyard dollara bərabər sərmayə qoyuluşu bizim uğurlu siyasətimizin nəticəsidir. Onu da deməliyəm ki, müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizi son 14 il ərzində qoyulmuşdur. Bu proses davam edir. Keçən il 14,6 milyard dollar sərmayə qoyulub, bu il, ən azı, ona bərabər həcmdə sərmayə yatırılacaq".

### "BU GÜN AZƏRBAYCAN ÖZ ENERJİ TƏHLÜKƏSİZLİYİNİ TAM TƏMİN EDİR VƏ DİGƏR ÖLKƏLƏRİN ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNƏ ÖZ TÖHFƏSİNİ VERİR"

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu neft strategiyası bu gün uğurla həyata keçirilir. Ölkənin iqtisadi qüdrətinin artırılmasına xidmət edir. Bu, neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsinin nəticəsidir ki, hazırda Azərbaycanda neft-qaz kəmərlərinin çəkilməsi və yataqların işlənməsi sahəsində beynəlxalq münasibətlərin inkişaf etmiş sistemi formalaşmışdır. Azərbaycan özünün enerji təhlükəsizliyini təmin etməklə yanaşı, Avropanın enerji təhlükəsizliyinin təminatı sahəsində ciddi addımlar atır. Respublikada elektrik stansiyalarının tikintisi belə bir nəticəyə gəlməyə əsas verir ki, ölkəmiz elektrik enerjisi istehsalının artım sürətinə görə də, dünyada ilk yerlərdən birini tutur. Bu gün Azərbaycan elektrik enerjisinə olan tələbatını tam ödəyir və xarici ölkələrə ixracı ildən-ilə artırır. Beləliklə, Azərbaycan nəinki, neft-qaz ixracı ilə imkanlarını genişləndirir, eyni zamanda, elektrik enerjisini böyük həcmdə xarici ölkələrə satmaqla, özünün iqtisadi qüdrətini daha da gücləndirir.

Müşavirədə ölkəmizdə enrji təhlükəsizliyinin tam təmin olunması məsələsinə toxunan dövlət başçısı "Bu gün Azərbaycan öz enerji təhlükəsizliyini tam təmin edir və digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verir. İndi bizdə elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur və bu il yeni böyük elektrik stansiyası işə düşməlidir. Bu stansiya, artıq bir neçə ildir ki, inşa edilir, "Şimal-2" elektrik stansiyasının açılışı bu il nəzərdə tutulur. Stansiyanın generasiya gücü 400 meqavatdır. Çox böyük stansiyadır, bizə əlavə potensial verəcək və əlbəttə ki, ilk növbədə, ixrac imkanlarımızı artıracaq. Çünki ölkə daxilində elektrik enerjisi ilə problemlər öz həllini tapıb, bizim əlavə ixrac imkanlarımız olacaqdır. Bununla belə, bu il bölgələrdə yeni yarımstansiyaların tikilməsi, elektrik xətlərinin çəkilməsi, onların və transformatorların dəyişdirilməsi, yəni elektrik təsərrüfatının yenidən qurulması, müasirləşdirilməsi istiqamətində kifayət qədər böyük investisiya layihələri icra ediləcəkdir" -deyə bildirib.

Qürur hissi ilə, deyə bilərik ki, hazırda respublikamızın heç bir dövlətin inkişaf yoluna oxşamayan, hansısa təcrübəni təkrarlamayan milli inkişaf modeli mövcuddur. Azərbaycanın hazırkı dinamik inkişafı, onu deməyə əsas verir ki, Ulu Öndərin modernləşmə strategiyasının gerçəkləşdirilməsi üçün təməlini qoyduğu islahatlar Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Bu siyasət isə yeni əsrdə Azərbaycanın inkişaf etmiş ölkələr sırasına sürətlə daxil olmasını təmin etmək məqsədi daşıyır. Ölkə Prezidenti çıxışında ölkəmizin inkişafı ilə bağlı heç bir problem olmadığını tam əminliklə bildirib: "Deyə bilərəm ki, bütövlükdə, ölkə iqtisadiyyatının inkişafı ilə bağlı heç bir problem yoxdur. Maliyyə vəziyyətimiz çox sabitdir, müsbətdir. Beynəlxalq qurumlar Azərbaycandakı islahatları yüksək qiymətləndirirlər. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, beynəlxalq reytinq agentlikləri bizdə aparılan islahatları yüksək qiymətləndirirlər. Davos Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyinə görə, Azərbaycanı 35-ci yerə layiq görüb. Dünya miqyasında 35-ci yeri tutmaq, MDB məkanında isə birinci olmaq, çox böyük nəticədir."

***ZÜMRÜD BAYRAMOVA***

# Ölkə başçısının həyata keçirdiyi islahatların təməlində Azərbaycan vətəndaşı dayanır




Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində, respublikamızın bütün bölgələrinin siması tamamilə dəyişmiş, demək olar ki, şəhərlə kənd arasındakı fərq aradan qaldırılmışdır. Regionlarda yeni iş yerlərinin açılması və qeyri-neft sektorunun inkişafı, daha çox valyuta gətirən strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün bütün imkanlardan istifadə edilməsi əhalinin məşğulluğunu daha da artırmışdır.

Müasir Azərbaycanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu strategiyanın ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkədə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, bütün sahələr üzrə köklü islahatlar aparılmış, davamlı sosial-iqtisadi inkişafın möhkəm təməli yaradılmışdır. Ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən əsası qoyulmuş məqsədyönlü siyasətin davamı olaraq "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiqi və icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etmişdir. Son 14 ildə respublikamızın bütün sahələrində böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirmişdir. Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülüb və müvafiq hüquqi baza formalaşdırılıb. Azərbaycan Prezidenti İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı və həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. Bu sahədə, daha mühüm islahata imza atıldı. Belə ki, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN Xidmət" mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək "ASAN Xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi.

## "ASAN XİDMƏT" MƏRKƏZLƏRİNİN YARADILMASI BU SAHƏDƏ İNQİLABİ DÖNÜŞ ETDİ"

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının 4-cü ilinin yekunlarına həsr olunan konfransında Prezident İlham Əliyev "ASAN Xidmət"in inqilabi dönüş kimi qiymətləndirərək, bu qurumun rüşftəxorluğa və bürokratik əngəllərə qarşı ən ciddi mübarizə yolu olduğunu vurğulayıb: "Son illər ərzində ictimai xidmətlər sahəsində inqilabi dönüş baş verdi. "ASAN Xidmət" mərkəzlərinin yaradılması bu sahədə inqilabi dönüş etdi.Son beş il ərzində bu mərkəzlərdə 20 milyona yaxın müraciət qəbul edilmişdir və "ASAN Xidmət" mərkəzlərini bəyənmə əmsalı 100 faizə yaxındır. Rüşvətxorluğa, korrupsiyaya və bürokratiyaya qarşı çox ciddi mübarizə aparılır. Bu mübarizə, o cümlədən, sistem xarakterli tədbirlər sahəsində aparılır. Deyə bilərəm ki, institusional tədbirlər ən səmərəli tədbirlərdir. Əlbəttə ki, cəza tədbirləri də tətbiq olunub, olunur, onların da əhəmiyyəti var. Ancaq institusional tədbirlər, rüşvətxorluq, korrupsiya üçün, necə deyərlər, meydançanın daralması istiqamətində atılan addımlar ən səmərəli addımlardır". Dünya ölkələri arasında 35-ci yerdə qərarlaşan Azərbaycan öz məhsullarını dünya bazarına çıxarır, modern və yenilikçi ölkə olaraq, dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığa üstünlük verir. Əvvəllər yeni texnologiyalar və yeniliklər xaricdən Azərbaycana gətirildiyi halda, bu gün Azərbaycan bu yeniliklərlə dünyanı təəccübləndirir. İnkişaf etmiş ölkələr intellektual məhsulun sahibi kimi çıxış edirdilərsə, bu gün Azərbaycanda intellektual məhsulu yaradılıb. Cənab İlham Əliyev "ASAN Xidməti" xalqımızın intellektual səviyyəsinin və Azərbaycanın inamlı inkişafının göstəricisi kimi dəyərləndirir.

Azərbaycanda gedən bütün işlər müasir səviyyədə həyata keçirilir. Hər görülən iş, aparılan islahatlar, reallaşan layihələr insanların sosial məişətinin və həyatın firavanlığına yönəlib. "Ölkəmiz müasirləşir və inkişaf edir. "ASAN Xidmət"in fəaliyyətə başlaması bizim niyyətimizi göstərir. Biz istəyirik ki, insanlar rahat yaşasınlar, ən gözəl xidmətlərə malik olsunlar," - deyən Prezident İlham Əliyev korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə "ASAN Xidmət"in çox mühüm rol oynadığını vurğulayıb. Eyni zamanda, bu mərkəzdə yeni texnologiyalar və innovasiyalar tətbiq olunur. Bu, innovasiya, yeni fikrin və yeni yanaşmanın yaranması Azərbaycanın inkişafının göstəricisidir.

## "GƏLƏN İL BİZİM 20 "ASAN XİDMƏT" MƏRKƏZİMİZ OLACAQDIR"

Müasir dövrümüzdə "ASAN Xidmət" dünyaya nümunə olan modeldir. Azərbaycan Prezidenti İlham Əliyevin dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi islahatların tərkib hissəsi olan "ASAN Xidmət" dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub. Bu gün "ASAN Xidmət" Mərkəzində vətəndaşların rahatlığı, şəffaflıq təmin edilir və "bir pəncərə" prinsipi tətbiq olunur. Əlbəttə ki, bu dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin "dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir" yanaşmasının formalaşdırılmasına da müsbət təsirini göstərir.

Müşavirədə çıxış edən insan amilini daim yüksək qiymətləndirən dövlət başçımız onların rifah halını yaxşılaşdırılması məqsədi ilə bu il üç "ASAN Xidmət" mərkəzinin_- Mingəçevir, Şəki və İmişli şəhərlərində açılacağını diqqətə çatdırıb: "Beləliklə, bu mərkəzlərin sayı 15-ə çatacaq. Beş mərkəzin tikintisi isə bu il başlanmalıdır. Onların açılışı gələn il nəzərdə tutulur. Beləliklə, gələn il bizim 20 "ASAN Xidmət" mərkəzimiz olacaqdır".

Bir sözlə, Azərbaycanda həyata keçirilən iri layihələr, bir daha təsdiqləyir ki, ölkəmizin gələcəyi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, güzəranının yaxşılaşdırılması sahəsində atılan addımlardır ki, bu da xalqımızın xoşbəxt gələcəyinə hesablanıb. Prezident İlham Əliyevin vurğuladığı kimi: "Gələcəkdə əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində daha qətiyyətli addımlar atılacaq. Çünki dövlətimizin qarşıya qoyduğu əsas vəzifələrdən biri əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılmasıdır".

*ZÜMRÜD*

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 920-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 921-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 922-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 923-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 925-VQD nömrəli Qanununun tətbiqi və "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 14 sentyabr tarixli 492 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 927-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 931-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 950-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə vizaların rəsmiləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 13 sentyabr tarixli 326 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan kinosunun 120 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

# Natiq Əmirov: “Davos Forumunda Azərbaycana və Prezident İlham Əliyevə çox böyük maraq var idi”

**Azərbaycan Respublikası Prezidentinin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov Azərbaycan Televiziyasının “Həftə” proqramına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir:**

“Həftə” proqramının aparıcısı Faiq Hüsiyev: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeni dünya sisteminin müasir çağırışlarına cavab verən siyasi kursu Azərbaycanı regionun lider dövlətinə çevirməklə yanaşı, ölkəmizi dünyada etibarlı tərəfdaş kimi tanıdıb. Rəsmi və işgüzar səfərlərdə, beynəlxalq tədbirlərdə dövlətimizin başçısı respublikamızın əldə etdiyi uğurları, eyni zamanda, Dağlıq Qarabağ problemini daim dünya ictimaiyyətinin diqqətinə çatdırır. Bu isə qonşu dövlətlərlə milli maraqlarımıza uyğun münasibətlərin qurulmasına, regionda yaşayan insanların mənafeyinə xidmət edən təşəbbüslərin irəli sürülməsinə, habelə bölgədə Azərbaycanın etibarlı tərəfdaş kimi nüfuz qazanmasına imkan verir. Bu gün qlobal enerji və kommunikasiya layihələrinin uğurla reallaşdırılması, Avropanın enerji təhlükəsizliyinin təminatında ölkəmizin rolunun artması iqtisadi qüdrətimizə yeni güc verir. Ölkə iqtisadiyyatının şaxələndirilməsi siyasəti, qeyri-neft sektorunun sürətlə inkişaf etdirilməsi müsbət nəticələrə səbəb olub. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrənin Davos şəhərinə işgüzar səfəri çərçivəsində Dünya İqtisadi Forumunda keçirdiyi bir sıra görüşlərdə qeyd etdiyimiz məsələlər barədə ətraflı danışılıb. Mövzu ilə bağlı söhbətimizi qonağımız - Azərbaycan Respublikası Prezidentinin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirovla davam etdirəcəyik.

**-Natiq müəllim, söhbəti bir qədər geniş miqyasda - əvvəldən başlamaq istərdim. Ümumiyyətlə, Davos İqtisadi Forumu nə deməkdir?**

-Davos İqtisadi Forumu 1971-ci ildə Klaus Şvab tərəfindən təsis edilib və əsas etibarilə, dünyada baş verən iqtisadi proseslərin, dünyanın iqtisadi gündəliyinin müzakirə edildiyi ən böyük platformaya çevrilib. Siyasətçilər bu Foruma 1974-cü ildən başlayaraq dəvət olunurlar. Həmin ildən başlayaraq Davos Dünya İqtisadi Forumu təkcə aktual iqtisadi məsələlərin deyil, həm siyasi, həm də ictimai məsələlərin müzakirə olunduğu ən böyük platformaya çevrilib. Davos İqtisadi Forumunda dünyanın iqtisadi prioritetləri müəyyənləşdirilir, dünya siyasətinin əsas istiqamətləri müzakirə olunur. Dünya iqtisadiyyatına təsir göstərən bir çox qərarlar, yeni ideyalar, innovativ yanaşma tərzləri məhz Davos İqtisadi Forumunda yaradılıb. Misal olaraq, BRİKS təşkilatının inkişaf bankının yaradılması ideyası 2011-ci ildə Davos Forumu çərçivəsində iqtisadçılar Lord Stern və Cosef Stiqlits arasında gedən müzakirələrdən yaranıb və sonradan öz inkişafını tapıb. Bu il Beynəlxalq Valyuta Fondu və digər maliyyə institutları öz illik hesabatlarını məhz Davos İqtisadi Forumunda açıqlayıb. Eləcə də bu qurumlar dünya iqtisadi siyasətinin prioritetləri, mövcud vəziyyət, təhdidlər barədə geniş açıqlamalarını məhz Davos İqtisadi Forumunda verirlər. Ümumiyyətlə, Davos İqtisadi Forumu siyasətçilərin, biznes adamlarının və ictimai təşkilatların bir araya gələrək, qarşılıqlı müzakirəsini təmin edən ən böyük institut, ən böyük platformadır ki, bu platformada insanlar, iqtisadçılar, siyasətçilər, biznes adamları rahat şəkildə öz müzakirələrini təşkil edə bilirlər. Bu il Davos İqtisadi Forumuna 70-dən artıq ölkənin dövlət və hökumət başçıları gəlmiş, müxtəlif müzakirələrdə dünyanın 900-dən artıq aparıcı şirkəti iştirak etmişdir. 2018-ci ildə keçirilən Davos İqtisadi Forumu 48-ci iqtisadi forumdur və burada 3 mindən artıq iştirakçı olub. Builki Forumun əsas mövzusu “Parçalanmış dünyada paylaşılan gələcək yaratmaq” idi. Forumda bütün müzakirələr əsasən bu deviz altında aparılıb, dünyanın gələcəyi və burada iqtisadi proseslərin həllinə qarşılıqlı yanaşma məsələləri öz əksini tapıb. Eyni zamanda, iştirakçılar Forumun yaratdığı şəraitdən istifadə edərək, öz ölkələrinin müxtəlif tədbirlərini, iqtisadi və digər sahələrdə apardıqları siyasətləri, ölkələrində baş verən mühüm siyasi hadisələri digər iştirakçılara və dövlət başçılarına təqdim edə bilirlər. Misal olaraq, builki Davos İqtisadi Forumunda Azərbaycan “Ekspo 2025” layihəsinə öz namizədliyini irəli sürən ölkə kimi Forum iştirakçılarına təqdimat keçirib.



**-Forumda ölkəmizə, həm də cənab Prezidentə çox böyük maraq var idi. Biz bilirik ki, cənab Prezident artıq 12-ci dəfədir bu Forumda iştirak edir.**

-Tamamilə doğrudur. Həqiqətən Davos Forumunda Azərbaycana və Prezident İlham Əliyevə çox böyük maraq var idi. Həm digər ölkələrin rəhbərlərinin, şirkət rəhbərlərinin, həm də ictimaiyyətin diqqətini açıq-aydın görmək mümkün idi. Cənab Prezident artıq 12-ci dəfədir ki, bu Forumda iştirak edirdi. Bu illər ərzində o, Davosda 183 görüş keçirib ki, bunlardan 33-ü bilavasitə dövlət başçıları ilə keçirilən görüşlərdir. Bu illər ərzində cənab Prezident 19 hökumət başçısı, 23 baş nazir, nazir və digər hökumət rəsmiləri, 90-dan artıq şirkət rəhbəri, 18 beynəlxalq təşkilatın rəhbərləri ilə görüşlər keçirib. Dövlətimizin başçısı 27 dəfə Forumun sessiyalarında iştirak edib, 7 dəfə kütləvi informasiya vasitələrinə müsahibə verib. Mən xüsusi bir faktı vurğulamaq istərdim ki, qeyd etdiyim görüşlərin hamısı qarşı tərəfin təşəbbüsü ilə keçirilib. Yəni, Azərbaycan Respublikasının Prezidenti hər hansı bir görüşün keçirilməsi təşəbbüsü ilə çıxış etməyib. Bu dəfə mən özüm də canlı şahidi oldum ki, cənab Prezidentin ən böyük qayğılarından biri də görüşlərin necə minimallaşdırılması idi. Belə ki, görüş üçün həddindən artıq müraciət var idi və bu müraciətlər arasında seçim etmək, doğrudan da bəzən müəyyən çətinliklər yarada bilirdi. Bütün bu 12 il ərzində eyni proses davam edib, yəni, məhz cənab Prezidentlə görüşmək istəyənlərin təşəbbüsü ilə görüşlər təşkil olunub.

**-İstəyirəm ki, söhbətimizi cənab Prezidentin iş qrafiki ilə bağlı sualla davam etdirək. Forumda cənab Prezidentin iş qrafiki kifayət qədər gərgin olub. İstəyirəm ki, bu haqda danışasınız.**

-Əslində Davos səfərləri zamanı cənab Prezidentin iş qrafiki hər zaman kifayət qədər mürəkkəb və gərgin olub. Çünki daha əvvəl qeyd etdiyim kimi, cənab Prezidentlə görüş keçirmək, onu öz sessiyalarına dəvət etmək istəyən qurumlar, dövlətlər həddindən artıq çoxdur və cənab Prezident bu səfərində də 3 gün ərzində 30-dan artıq görüş keçirib. Görüşlər hər gün səhər saat 7-dən başlayır və günün sonuna qədər davam edirdi. Bu görüşləri əsasən 4 istiqamətə ayırmaq olar. Birincisi, siyasi əhəmiyyət daşıyan görüşlərdir. Bunlara dövlət başçıları ilə, habelə beynəlxalq təşkilatların rəhbərləri ilə görüşlər daxildir. Bildiyiniz kimi, cənab Prezident Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, İsrailin Baş naziri Benyamin Netanyahu, İsveçrə Konfederasiyasının Prezidenti Alain Berset, eyni zamanda, Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç, Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xəlid Əl Falih, OPEC-in baş katibi Məhəmməd Barkindo ilə görüşüb. Bu görüşlər siyasi əhəmiyyəti ilə yanaşı, Azərbaycanın Dünya İqtisadi Forumunda mövqeyinin təmsil edilməsi, Azərbaycanın əldə etdiyi nailiyyətlərin təqdim edilməsi, eyni zamanda, həm beynəlxalq təşkilatlarla, həm də sözügedən dövlətlərlə Azərbaycanın qarşılıqlı əlaqələrinin müzakirəsi baxımından çox faydalı olub. İkinci istiqamət iqtisadi əhəmiyyət daşıyan görüşlər idi. Bu görüşləri də 4 kateqoriyaya bölmək olar. Bu görüşlər özündə nəyi əhatə edir? İlk növbədə, dünyanın böyük şirkətlərinin Azərbaycana marağı və Azərbaycan Prezidenti ilə görüşmək istəyindən irəli gələn məsələlər idi. Cənab Prezident bir çox şirkətlərlə onların müraciətinə əsasən Davos İqtisadi Forumunda görüşdü. Bu şirkətlər hansılardır? Birinci kateqoriyaya dünya investisiya şirkətlərini aid edə bilərik. Dövlətimizin başçısının birinci görüşü Amerikanın məşhur “Black Rock” investisiya şirkətinin rəhbəri ilə oldu. “Black Rock” şirkəti dünyanın ən böyük investisiya şirkəti olmaqla, 6,3 trilyon dollar investisiya portfelini idarə edir. Şirkətin 70-dən artıq ölkədə ofisi fəaliyyət göstərir. Cənab Prezidentlə müzakirələrində şirkətin rəhbəri çox maraqlı bir məqama toxundu. O, Azərbaycana səfər etmək və son illərdə ölkəmizdə cənab Prezidentin həyata keçirdiyi iqtisadi islahatları, mövcud olan və əlavə yaranan investisiya imkanlarını bir daha araşdıraraq Azərbaycanla əməkdaşlığı növbəti, daha üst səviyyəyə keçirmək istədiyini bildirdi. Bildiyiniz kimi, “Black Rock” şirkəti Azərbaycan Respublikası Dövlət Neft Fondunun əməkdaşlıq etdiyi investisiya şirkətlərindən biridir və Fondun vəsaitlərinin bir hissəsinin idarə edilməsində də iştirak edir. Lakin görüşdə “Black Rock” şirkətinin rəhbəri Azərbaycanı, sadəcə, investor kimi deyil, həm də “Black Rock” şirkətinin investisiya hədəfi kimi görmək və Azərbaycana investisiya yatırımları imkanlarını araşdırmaq üçün ölkəmizə səfər etməkdə maraqlı olduğunu qeyd etdi. Daha əvvəl qeyd etdiyim kimi, dünyanın ən böyük investisiya şirkətinin - 6,3 trilyon dollar həcmində bir portfeli idarə edən şirkətin rəhbəri cənab Prezidentə müraciət edərək investisiya qoymaq, investisiya imkanlarını dəyərləndirmək üçün Azərbaycana səfər etmək niyyətində olduğunu bildirir. Cənab Prezident də səfər üçün lazımi şəraitin yaradılması ilə bağlı aidiyyəti üzrə tapşırıqlar verdi.

Həmçinin Amerikanın “Blackstone” şirkəti 400 milyard dollara yaxın bir investisiya portfelini idarə edən şirkətdir və dünyanın 25 ölkəsində ofisi mövcuddur. “Blackstone” müxtəlif ölkələrdə böyük həcmli investisiyaları, xüsusilə daşınmaz əmlak və digər sahələrə investisiya yatıran və portfeli idarə edən bir şirkətdir və Azərbaycan Respublikasının Dövlət Neft Fondu ilə də əməkdaşlıq edir.

Növbəti istiqamət isə lider texnologiya şirkətləri ilə görüş idi. Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi islahatların özəyində qeyri-neft sektorunun inkişafı durur. Qeyri-neft sektorunun inkişafı üçün insan kapitalının inkişafı vacibdir. İnsan kapitalının inkişafından doğan trend isə yüksək texnologiyalara söykənən iqtisadiyyatların formalaşmasıdır.

**-Yəni, cənab Prezidentin qeyd etdiyi kimi, qeyri-neft sektorunun inkişafı əsas məsələlərdən biri kimi bizi maraqlandırır.**

-Bu zaman insan kapitalı və yüksək texnologiyalarla yüksək dəyər yaradan istehsallara yönəlik iqtisadiyyatı inkişaf etdirmək lazımdır. Cənab Prezidentin bu siyasəti istər Davosda, istər dünyanın digər qlobal transkontinental şirkətlərinin maraqları ilə üst-üstə düşdüyü üçün onlar cənab Prezidentin bu siyasətində çox maraqlı idilər. Maraqlı məqam o idi ki, həm kuluarlarda, həm görüşlərdən sonra məlum olurdu ki, şirkətlər Azərbaycanda aparılan islahatlar, cənab Prezident tərəfindən qəbul edilmiş qərarlar, xüsusilə son illər ərzində həyata keçirdiyi tədbirlər barədə çox məlumatlıdırlar və bu tədbirlərin hansı istiqamətdə inkişafını da proqnozlaşdıra bilirlər. Ona görə də dünyanın nəhəng texnologiya şirkətlərinin rəhbərləri cənab Prezidentlə görüşmək həvəslərini, xahişlərini bildirirdilər. Misal üçün, “CİSCO” şirkətini qeyd etmək olar. Maraqlıdır ki, “CİSCO” şirkətinin dünyanın 165-dən çox ölkəsində 380 ofisi var və işçilərinin sayı 74 minə yaxındır. “CİSCO” şirkətinin Azərbaycanın müxtəlif qurumları ilə əməkdaşlıq əlaqələri mövcuddur və həm dövlət sektorunda, həm də özəl sektorda kifayət qədər təmsil olunur. Görüşdə şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru Azərbaycan Respublikası Prezidentinin apardığı iqtisadi islahatlar, həyata keçirdiyi iqtisadi yönümlü tədbirlərin bilavasitə “CİSCO” şirkəti tərəfindən dəstəklənəcəyini və aparılan bu islahatlarda “CİSCO” şirkətinin iştirak etmək istəyini cənab Prezidentə bildirdi. Cənab Prezident yüksək texnologiya şirkətlərinin Azərbaycana gəlməsini, investisiya qoymasını, Azərbaycan şirkətləri ilə əməkdaşlığı artırmasını məmnunluqla qarşıladığını bildirərək, aidiyyəti üzrə tapşırıqlarını verdi.

*Ardı səh. 5*

# Natiq Əmirov: “Davos Forumunda Azərbaycana və Prezident İlham Əliyevə çox böyük maraq var idi”

Əvvəli səh.4

Dövlətimizin başçısının görüşdüyü digər bir şirkət “Microsoft” şirkətidir. Düşünürəm ki, bu şirkətin geniş təqdimata ehtiyacı yoxdur. “Microsoft” 441 milyard ABŞ dolları kapitallaşma və 100 min nəfər işçi ilə dünyanın lider texnologiya şirkətidir. Şirkətin rəhbəri də görüşdə dövlətimizin başçısının liderliyi ilə Azərbaycanda əldə edilən iqtisadi uğurların, aparılan iqtisadi proseslərin iştirakçısı olduqlarını, həmçinin bu iştirakçılığı daha da genişləndirmək istəklərini, Azərbaycanın gələcəyinə inamı ifadə etdi. Eyni zamanda, bildirdi ki, bütün təhlillər Azərbaycanın regiondakı mövcud liderliyini daha da genişləndirəcəyini, ölkənin daha da irəli gedəcəyini göstərir. Şirkət Azərbaycanın bu siyasətində öz yerini tutmaq və cənab Prezidentlə bir yerdə bu prosesin iştirakçısı olmaq istəyini və Azərbaycana maraqlarını bildirdi.

Başqa bir istiqamət isə infrastruktur sahəsində fəaliyyət göstərən şirkətlərlə görüş idi. Buraya “Royal Philips”, həmçinin “MasterCard” və “SUEZ GROUP” şirkətlərini aid edə bilərik. Fransanın “SUEZ GROUP” şirkəti infrastruktur layihələri üzrə dünyanın ən innovativ şirkətlərindən biridir. Azərbaycanda da müəyyən sahələrdə, xüsusilə də su sistemlərinin bərpasında, yağış sularının toplanması, emalı və yenidən istifadə edilməsində və digər bir sıra layihələrdə iştirak edib. Şirkətin dünyanın 70-dən çox ölkəsində ofisləri mövcuddur. Bu sahədə ən innovativ texnologiyaları gətirən, tətbiq edən bir şirkət kimi cənab Prezident “SUEZ GROUP” şirkəti ilə görüşüb. Görüşdə qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olundu və şirkətin rəhbəri Azərbaycanın infrastruktur layihələrində iştirak etməkdə və Azərbaycana yeni texnologiyaların gətirilməsində maraqlı olduqlarını bildirdi.

“MasterCard” şirkəti dünyanın 210 ölkəsində fəaliyyət göstərir və Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə səmərəli əməkdaşlıq əlaqələri mövcuddur. Belə ki, “MasterCard” Mərkəzi Bank ilə birlikdə “2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”nın layihəsinin hazırlanmasında iştirak edir. Eyni zamanda, qeyd etmək lazımdır ki, Azərbaycanda mövcud olan bank kartlarının - kredit və debit kartlarının təxminən 49-50 faizi “MasterCard”a məxsusdur. Kartlarla olan ümumi dövriyyənin 33 faizi də “MasterCard”ın payına düşür və bu artım son iki ildə baş verib. Belə ki, son iki il ərzində “MasterCard” Azərbaycanda öz dövriyyəsini və kartlarının sayını 15 faizə qədər artıra bilib.

Bundan başqa, Davos Forumu çərçivəsində cənab Prezident “Lazard Freres”, “Royal Philips”, dünyanın nəhəng neft şirkətləri, o cümlədən “Lukoil” və digər neft şirkətləri ilə görüşlər keçirib. Bir daha qeyd etmək istərdim ki, bütün bunlar Azərbaycanın liderinə, Azərbaycan dövlətinin gələcəyinə, ölkədə olan siyasi, iqtisadi sabitliyə və cənab Prezident tərəfindən həyata keçirilən bu siyasətin davamlılığına, etibarlılığına olan inamın təzahürü, göstəricisi idi.

**-Belə bir sualım var. Ümumiyyətlə, ərazi baxımından Azərbaycan elə də böyük ölkə deyil. Əhali baxımından da çox böyük ölkə deyil. Ölkəmizə bu maraq haradan yaranır, bu marağın arxasında nə durur?**

-Çox sağ olun. Bu, doğrudan da çox maraqlı bir sualdır. Davos İqtisadi Forumunun ümumi gündəliyini, orada baş verən prosesləri, müzakirələri müqayisə etsək, Azərbaycanın özünün son 10-15 illik tarixində kiçik bir Davos halına gəldiyini görərik. Çünki dünyada baş verən bütün innovativ proseslər Azərbaycanda bir növ əks olunub, ölkənin gündəlik həyatında aparılan siyasətdə öz əksini tapıb. Əslində ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdandan bəri Azərbaycan ən azı postsovet məkanında ən çox islahat aparan ölkədir. Əgər 2003-cü ilə qədər bu islahatlar əsasən dövlət quruculuğunu və siyasi islahatları əhatə edirdisə, 2003-cü ildən bu günə qədər cənab Prezident tərəfindən aparılan islahatların kökündə iqtisadi, institusional və sosial sahələri dəstəkləməklə həyata keçirilən islahatlar durur. Dünya ictimaiyyəti də bunu görür. Prezident İlham Əliyevin həyata keçirdiyi bu siyasət nəticəsində Azərbaycanın, ilk növbədə, siyasi rolunun həm bölgədə, həm də dünyada hansı bir səviyyəyə çatdığını hər kəs müşahidə edir. Bunu beynəlxalq reytinq agentlikləri, dünyanın müxtəlif sorğu şirkətləri və digər beynəlxalq qurumlar öz hesabatlarında bildirirlər. Bunlar nədən ibarətdir? Bu baxımdan, məsələn, Davos Dünya İqtisadi Forumunun elan etdiyi “Qlobal rəqabətlilik hesabatı”nı qeyd etmək olar. Bu hesabata görə, Azərbaycan rəqabətqabiliyyətlilik üzrə dünyada 35-ci yerdədir. Azərbaycan MDB ölkələri üzrə birincidir, bir çox Avropa ölkələrindən isə öndədir. Rəqabətlilik hər şey deməkdir. “Qlobal rəqabətlilik hesabatı”nda 35-ci yer ölkədə aparılan həm siyasi, iqtisadi, sosial siyasətin vəhdətini, həm də ölkədə siyasi sabitliyin mövcudluğunu göstərən əsas amillərdən biridir. Biz “Qlobal rəqabətlilik hesabatı”nda böhran illəri sayılan, neftin qiymətinin aşağı olduğu bu illərdə belə 2 pillə irəliləyərək 35-ci yerdə qərarlaşmışıq.

Bundan əlavə, “Biznesin mürəkkəbliyi” adlı indeksdə son 1 il ərzində Azərbaycan 20 pillə irəliləyib. Biznesin mürəkkəbliyi nəyin göstəricisidir? Dövlətin biznesə müdaxiləsi və dövlətin biznes üçün yaratdığı şərait. Hesabatın təhlili göstərir ki, Azərbaycan biznesə dövlət tərəfindən verilən dəstək, həmçinin dövlət tərəfindən biznesə olan müdaxilələrin azlığı baxımından dünyada lider ölkələr səviyyəsinə gəlib. Cənab Prezident tərəfindən istər yoxlamaların azaldılması, istər investisiya təşviqi sənədlərinin verilməsi, istərsə də sənaye zonalarının və digər texnoparkların yaradılması istiqamətində görülən tədbirlərin və həyata keçirilən digər islahatların, o cümlədən institusional və struktur islahatlarının nəticəsi olaraq Azərbaycan biznesin mürəkkəbliyi kateqoriyasına görə 20 pillədən çox irəliləyib. Dünya Bankı tərəfindən hazırlanan “Doing Business” hesabatında Azərbaycan Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri olub. Cənab Prezidentin rəhbərliyi ilə, demək olar ki, bütün sahələr üzrə islahatlar həyata keçirilib və bütün bu tədbirlərin nəticəsi olaraq biz “Doing Business” hesabatında ötən ilə nəzərən 8 pillə irəliləyərək 57-ci yerdə qərarlaşmışıq.

**-Maraqlıdır ki, Avropanın öz ölkələri sıralanmada bizdən sonradır.**

-Tamamilə doğrudur. Daha bir indeksdə - “İnklüziv inkişaf indeksi”ndə 2018-ci ildə Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında 3-cü, MDB ölkələri arasında 1-ci yerdədir. “İnklüziv inkişaf indeksi” çox önəmli bir indeksdir. Davosdakı çıxışında cənab Prezident qeyd edib ki, biz islahatları elə bir mərhələdə, elə bir hazırlıq şəraitində keçirdik ki, vətəndaşlarımız islahat prosesini bu islahatlardan əziyyət çəkmədən yaşadılar. Yəni, islahatlar sosial paket və əhalinin sosial durumunun dəstəklənməsi istiqamətində atılan addımlarla elə uzlaşdırıldı ki, bu proses əhali üçün çox rahat, eyni zamanda, onların sosial vəziyyətinin pisləşməməsi şəraitində keçdi. Amma biz ümumi islahatlar aparan ölkələrin tarixçəsinə fikir versək, görərik ki, islahat aparan hər bir ölkədə demək olar, əhali müəyyən dövr ciddi əziyyət çəkir, müəyyən şoklar yaşanır. Lakin Azərbaycan şəraitində cənab Prezidentin məhz doğru, düzgün və ardıcıllıqla həyata keçirdiyi islahatlar yolu ilə əhalinin sosial müdafiəsi daha da gücləndirilib. Azərbaycanda işsizlik üzrə 5 faizə qədər, yoxsulluq üzrə 5 faizdən bir qədər artıq - 5,4 faiz olmaqla, çox yüksək göstəricilər əldə edilib.

İnklüziv inkişaf həm də Azərbaycanın bütün regionlarının bərabər inkişafını nəzərdə tutur. Belə ki, yalnız Bakı şəhəri və yaxud hansısa bir bölgə deyil, Azərbaycanın bütün bölgələri bu dövr ərzində ciddi inkişaf mərhələsini yaşayıb. Regionlar istər sosial, istər iqtisadi, istər insan kapitalının inkişafı baxımından inanılmaz bir hala gəlib. Odur ki, Azərbaycan 2018-ci il üzrə “İnklüziv inkişaf indeksi”nə görə dünyada 3-cü yerdədir. Eyni zamanda, daha bir indeks - siyasətçilərə ictimai etimada görə biz dünyada 20-ci yerdəyik. Cənab Prezident hər zaman qeyd edib ki, bizim nailiyyətlərimizin, uğurlarımızın mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqı və iqtidar arasında olan vəhdət, qarşılıqlı anlaşma və Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi siyasətin xalqımız tərəfindən mütləq dəstəklənməsi ölkəmizin siyasi, iqtisadi və digər uğurlarının əsasını təşkil edir və bu da öz növbəsində, iqtisadi və siyasi sabitliyə gətirib çıxarır. Buna görə də təsadüfi deyil ki, siyasətçilərə etimada görə Azərbaycan dünyada 20-ci yerdədir.

**-Əslində xalq-iqtidar birliyinin ən yaxşı göstəricisi elə söylədiyiniz bu rəqəmdir.**

-Tamamilə doğrudur. Bu, xalq-iqtidar birliyinin bilavasitə real həyatda göstəricisidir. Bu birlikdən irəli gələn nailiyyətlər də yuxarıda sadaladığım həmin reytinqlərdə Azərbaycan dövlətinin mövqeyində və onun liderlik mövqeyində öz əksini tapır. “Dövlət tənzimlənməsi yükü” adlanan bir indeks var və bu indeks dövlət tərəfindən iqtisadi proseslərin və biznes mühitinin tənzimlənməsi səviyyəsini ölçür. Bu indeks üzrə biz dünyada 15-ci yerdə qərarlaşmışıq. Dünyanın bir çox ölkələrini geridə qoyuruq. Eyni zamanda, “Bərabərsizlik” adlı bir indeks var ki, sosial bərabərsizliyin aradan qaldırılması üçün dövlətin gördüyü tədbirləri əks etdirir. Orada da biz demək olar ki, dünyada inklüzivlik indeksində olduğu kimi, 3-cü yerdə, MDB ölkələri üzrə 1-ci yerdəyik. Yəni, sizin “Azərbaycanı dünyanın diqqətində saxlayan məsələ nədir” sualınıza cavab olaraq, birinci növbədə cənab Prezidentin gərgin əməyi və şəxsi nüfuzunu qeyd etmək istəyirəm. Mən vurğulayım ki, bütün bu proseslərdə Prezidentin şəxsi nüfuzu həqiqi mənada parlaq bir şəkildə gözə çarpır.

**-Əslində, hər bir siyasətçi üçün ən gözəl göstərici elə budur.**

-Bəli. Düzdür, tarixdə şəxsiyyətin rolu müxtəlif kateqoriyalarda, müxtəlif dövrlərdə müxtəlif cür qiymətləndirilir. Lakin cənab Prezidentin şəxsi nüfuzunun bu dərəcədə yüksək olması Azərbaycanın dünyanın böyük dövlətlərini onların maraqları ilə bərabər öz orbitində saxlamasına imkan verir. Yəni, baxmayaraq ki, sizin daha əvvəl qeyd etdiyiniz kimi, əhalisinə və ərazisinə görə nisbətən kiçik olan bir ölkə dünyanın nəhəng dövlətlərini öz orbitində saxlamağı bacarır və həmin dövlətlər bu regionla əlaqədar, bir sıra hallarda isə bu regionla bağlı olmayan layihələrdə Azərbaycan dövlətinin maraqlarını nəzərə alırlar, Azərbaycan Respublikasının Prezidenti ilə hesablaşırlar, müzakirələr aparırlar. İkinci məsələ, Prezidentin şəxsi nüfuzu, gərgin əməyinin nəticəsi olan yuxarıda sadaladığım amillərdir ki, Azərbaycanı dünyanın diqqət mərkəzində saxlayır. Azərbaycan investisiya imkanları olan ölkə kimi dəyərləndirilir və siyasi xadimlər, iş adamları, beynəlxalq təşkilatlar ölkəmizlə qarşılıqlı əməkdaşlıq şəraitində işləməyə çalışırlar.

**-Natiq müəllim, hazırda ölkəmizdə qeyri-neft sektorunun inkişafı prioritet sahə kimi götürülsə də, hər halda Azərbaycan neft-qaz ölkəsi kimi tanınır. Bunu açıq etiraf eləmək lazımdır. Bu gün Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin çox böyük payı var.**

-Tamamilə doğru deyirsiniz. Azərbaycan yeganə ölkələrdən biridir ki, öz qeyri-neft sektorunu inkişaf etdirməklə iqtisadiyyatın şaxələndirilməsinə nail olmaqla yanaşı, həm də enerji ölkəsi olaraq mövqeyini qoruyub saxlayır. Hətta bir sıra hallarda enerji resurslarının tranziti, daşınması və eyni zamanda, istehsalı üzrə də nəinki öz mövqeyini qoruyur saxlayır, hətta bir qədər də qabağa aparır. Buna misal olaraq, cənab Prezidentin Davosda keçirdiyi görüşləri göstərə bilərəm. OPEC-in sədri Məhəmməd Barkindo cənab Prezidentlə görüşdə çox məmnuniyyətlə vurğuladı ki, 2016-cı ilin sonunda OPEC və OPEC üzvü olmayan ölkələrin birgə müzakirəsi və neft hasilatının tənzimlənməsi barədə qərarların qəbulunda və ümumiyyətlə, bu dövlətlərin bir araya gələrək bu istiqamətdə qərarların qəbul edilməsində cənab Prezidentin çox mühüm rolu olub. Azərbaycan Respublikasının Prezidenti həmin proseslərdə əhəmiyyətli mövqe tutaraq qərarların qəbulunda çox müsbət rol oynayıb və bu qərarların qəbulu da sonradan gördüyümüz kimi, neft hasilatının tənzimlənməsi ilə neftin qiymətinin də artmasına və ədalətli dəyərinin formalaşmasına mühüm təsir göstərib. Cənab Prezident Davosda Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri ilə görüşdü. Səudiyyə Ərəbistanı neft hasilatı üzrə dünyanın ən böyük dövlətlərindən biridir. Dövlətimizin başçısı “Lukoil”, “Chevron”, “BP” kimi şirkətlərin rəhbərləri ilə görüşdü. Bunlar dünyada neft siyasətini müəyyənləşdirən və yönləndirən dövlətlər və qurumlardır. Cənab Prezident Ümummilli Liderin əsasını qoyduğu neft strategiyasını elə bir ustalıqla həyata keçirir ki, dünyanın neft nəhəngləri olan bütün bu sadaladığım dövlətləri və həmin o nəhəng şirkətləri Azərbaycan öz orbitində saxlayır. Yəni, onlar bütün məsələlər üzrə bir nöqtəyə gəlib Azərbaycan Prezidenti ilə məsləhətləşirlər, Azərbaycan Prezidentinə öz planlarını təqdim edirlər, Azərbaycan Prezidentinin, Azərbaycan dövlətinin siyasəti ilə maraqlanırlar və Azərbaycana münasibətdə öz siyasətlərini ona uyğun qururlar. Bunlar hamısı Azərbaycanın təkcə qeyri-neft ölkəsi, qeyri-neft sektorunu inkişaf etdirən bir ölkə kimi deyil, eyni zamanda, ciddi bir enerji ölkəsi kimi öz mövqelərini qoruyub saxladığını göstərir.

Ardı səh. 6

# Natiq Əmirov: "Davos Forumunda Azərbaycana və Prezident İlham Əliyevə çox böyük maraq var idi"

Əvvəli səh-5

**-Amma bütün bunlarla yanaşı, bizim qeyri-neft sektorumuzda da çox böyük artım var. Ümumi daxili məhsulun 70 faizdən çoxu qeyri-neft sektorunda formalaşır. Mövzudan bir qədər kənara çıxıb belə bir sual vermək istəyirəm. Bu gün dünya bazarında 1 barrel neftin qiyməti təqribən 70 ABŞ dolları ətrafında formalaşır və bu, gələcəkdə qeyri-neft sənayesində aparılacaq islahatlara hansısa bir formada təsir edə bilməzmi və ümumiyyətlə, hansısa bir arxayınlıq yaratmazmı?**

-Bəli, bu gün 1 barrel neftin qiyməti təqribən 70 ABŞ dolları ətrafında formalaşır. Biz Davos gündəliyinə fikir versək, cənab Prezidentin iştirak etdiyi sessiyaya, eyni zamanda, görüşlərdə söylədiyi fikirlərə baxsaq görərik ki, cənab Prezident bu sualı cavablandırarkən bildirdi ki, neftin yüksək qiyməti artıq Azərbaycanın iqtisadi inkişafının drayveri kimi çıxış edə bilməz. Cənab Prezident hökumət qarşısında aydın mesaj qoyaraq aydın tapşırıqlar verib. Bildiyiniz kimi, 2018-ci il üçün dövlət büdcəsində neftin qiyməti 1 barrelə görə 45 ABŞ dolları civarında götürülüb. Neftin yüksək qiymətindən yaranan fərq yalnız Azərbaycanın strateji valyuta ehtiyatlarının artırılmasına, ölkəmizin onsuz da dünya miqyasında kifayət qədər kiçik olan dövlət borcunun bir az da azaldılmasına imkan verəcək. Bildiyiniz kimi, Azərbaycanda dövlət borcu ümumi daxili məhsula nisbətdə olduqca kiçikdir. Bu baxımdan Azərbaycan dünyada lider ölkələrdən biridir. Amma cənab Prezident hökumət qarşısında tələb qoyur ki, bu kiçik borc daha da kiçilməlidir və Azərbaycanın neftin qiymətindən yaranan gəlirləri ölkənin strateji valyuta ehtiyatlarının artırılmasına yönəlməlidir. Hökumət qurumları qarşısında isə bilavasitə qeyri-neft sektorunun inkişafı, qeyri-neft sektorundan dövlətin, vətəndaşların gəlirlərinin artırılması istiqamətində addımları dəstəkləmək və buradan gələn gəlirlərlə ölkəni idarə etmək tələbini qoyub. Bu tələbdən irəli gələn siyasət də hökumət tərəfindən icra olunur. Qeyd olunan müzakirədə də cənab Prezident bu fikirləri səsləndirərək deyib ki, neft, enerji ölkəsi olaraq bu sahədən əldə etdiyi gəlirlərin Azərbaycanın ümumi inkişafının bünövrəsini təşkil etməsinə baxmayaraq, ölkənin gələcək inkişafını qeyri-neft sektorunun inkişafında görür və qeyri-neft sektorunun da inkişafı Azərbaycanda bu dəqiqə prioritet sahələrdən biridir. Azərbaycanın qeyri-neft sənayesi 4 faiz, qeyri-neft sektoru isə 2,7 faiz artıb. Bütün bunlar o illərdə baş verib ki, dünyanın bir çox ölkələri, xüsusilə neft hasil edən ölkələr ciddi tənəzzül dövrünü yaşayır, iqtisadiyyat geriləyirdi. Amma cənab Prezidentin də bildirdiyi kimi, Azərbaycan qeyri-neft sektorunun inkişafına, qeyri-neft sənayesinin artımına nail olur, həmçinin strateji valyuta ehtiyatlarımız 4 milyard yarım ABŞ dollarına qədər artır.

**-Artıq valyuta ehtiyatlarımız 42 milyard ABŞ dollarıdır.**

-Bəli, bu, çox ciddi uğurdur. Bunların təməlində cənab Prezident tərəfindən hazırlanan və həyata keçirilən iqtisadi islahatlar və digər tədbirlər durur.

**-Cənab Prezident çıxışında da vurğuladı ki, təkcə son 1 il ərzində Azərbaycanda 177 min yeni iş yeri açılıb. Yəni, bunun özü də ölkənin dinamik inkişafından xəbər verən amillərdən biridir.**

-Tamamilə doğrudur. Davos Forumunda Azərbaycan Prezidentini çoxsaylı tədbirlərə, sessiyalara, görüşlərə dəvət edirdilər. Amma cənab Prezident "Strateji baxış: Avrasiya" adlı interaktiv müzakirəyə qatıldı. Azərbaycan Televiziyasında da yayımlanan bu müzakirədə də cənab Prezident bildirdi ki, Azərbaycanda 177 minə qədər yeni iş yeri yaradılıb. Bu iş yerləri elə-belə yaradıla bilməz. Bu iş yerləri bütün regionlarda yaradılıb. "İnklüziv inkişaf indeksi"ndə də gördüyümüz kimi, təkcə Bakıda, yaxud fərdi bir sahədə yaradılan iş yerləri deyil. Azərbaycanın, demək olar ki, bütün regionlarında, iqtisadiyyatın bütün sahələrində biz iş yerlərinin artımını müşahidə edirik. İqtisadiyyatın istər kənd təsərrüfatı, istər sənaye, istər digər sahələrini əhatə edən ciddi inkişafı müşahidə edirik. Bunlar da cənab Prezidentin həmin sessiyada səsləndirdiyi fikirlərdir.

**-Natiq müəllim, eyni zamanda, vurğulamaq lazımdır ki, bu gün Azərbaycan özü böyük bir nəqliyyat mərkəzi kimi dünya ictimaiyyətinin diqqətindədir. Məsələn, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilişi, eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin reallıq kimi ortada olması - bütün bunlar çox böyük göstəricidir.**

-Davos Forumunda ən çox müzakirə olunan məsələlərdən biri də Azərbaycanın həm liderliyi, həm təşəbbüsü, həm də mühüm rolu ilə həyata keçirilən 2 nəqliyyat dəhlizi idi. Birinci növbədə də yüklərin Çindən Avropaya daşınması üçün ən qısa quru yolu kimi müəyyən edilən və dünyada bu şəkildə qəbul olunan Şərq-Qərb nəqliyyat dəhlizi.

**-Yüklər mənzil başına 14 günə rahat dəmir yolu xətti ilə çatır.**

-Bəli. Hazırda bu müddət 60-70 günə qədərdir. Nəticədə, müddət təqribən 3 dəfəyə yaxın azalır və bu yol ən qısa quru yolu kimi artıq dünya tərəfindən qəbul olunur. İkinci istiqamət isə Şimal-Cənub nəqliyyat dəhlizidir. Bu da Hindistan, İran, Pakistandan yüklərin quru yolu ilə Avropa ölkələrinə çatdırılmasını nəzərdə tutur. İlk baxışda iqtisadi layihə kimi görünsə də, bu layihələr çox mühüm siyasi layihələrdir. Bu iki layihənin həyata keçirilməsi üçün dünya dövlətləri 100 illərlə mübarizə aparıb. Hər iki yol ilə bağlı işlər davam etdirilir. Artıq Şərq-Qərb yolu işə düşüb, Şimal-Cənub nəqliyyat dəhlizi üzərində də ciddi işlər gedir. Bu istiqamətlər Azərbaycan Prezidentinin bilavasitə təşəbbüsü, liderliyi və ən mühümü isə güclü iradəsi hesabına ərsəyə gələn layihələrdir. Azərbaycan bu layihələrə böyük investisiyalar qoyub. Cənab Prezident ciddi siyasi iradə ortaya qoydu. Ən mühüm məqam ondan ibarətdir ki, bu layihələrin ətrafında dünya dövlətlərinin marağını saxlaya bildi. Azərbaycan dövlətinin başçısı, bir az təvazökarlıqdan kənar olsa da, burada siyasi qrossmeyster rolunda çıxış edirdi. Yəni, çox mürəkkəb olan bu nəqliyyat dəhlizlərində siyasi qüvvələrin, dünya dövlətlərinin, dünyanın iqtisadi güclərinin həmin layihələr çərçivəsində Azərbaycanın orbitindən kənarlaşmasına imkan vermədi. Onların hamısının iştirakı ilə həmin nəqliyyat dəhlizlərinin reallaşmasına nail oldu. Cənab Prezident deyir: "Azərbaycan kiçik dövlətdir - əhalisi və ərazisinə görə". Amma bu kiçik ölməyi necə üstünlüyə çevirmək olar? Cənab Prezidentin iqtisadi və siyasi strategiyası buna yönəlirdi. Yəni, qonşular böyük dövlətlərdirsə, biz kiçik dövlətiksə, bu, özü bir üstünlükdür. Cənab Prezident həmin üstünlükdən faydalandı. Təkcə İranın, Rusiyanın və Türkiyənin bazarları 300 milyon insanı əhatə edir. Cənab Prezident bu dövlətləri Azərbaycana gətirdi və bu dövlətlərlə elə bir mehriban siyasi-iqtisadi qonşuluq əlaqələri qura bildi ki, bu gün bizim ixracatımızın əsas hissəsi bu dövlətlərin payına düşür.

**-Yəni, öz milli maraqlarımızı üstün tutmaq şərti ilə qonşuların da maraqlarını nəzərə almaq prinsipi.**

-Cənab Prezident çıxışında bildirdi ki, qonşularla mehriban münasibət dövlətin öz maraqlarını qorumaq yolunda ən mühüm amillərdən biridir.

**-Burada, eyni zamanda, quru yolların, yəni, avtomobil yollarının inkişafını da demək olar. Məsələn, vurğulamaq olar ki, ölkəmizdə 15 il ərzində 13 min kilometrə yaxın avtomobil yolu çəkilib.**

-Artıq 15 min kilometr avtomobil yolu. Bunlar sadəcə rəqəm kimi həqiqəti təsəvvür etməyə imkan vermir.

**-İlə təqribən 1000 kilometr yol düşür.**

-Bizim bu gün elə kəndlərimiz, elə bölgələrimiz var ki, uzun illər yol olmayıb. Bu gün ucqar dağ kəndlərinə avtomobil yolları çəkilir. Sadəcə yollar yox, yüksək keyfiyyətli yollar. Bu ilin investisiya büdcəsində cənab Prezidentin elan etdiyi kimi, sosial, infrastruktur layihələrin həyata keçirilməsinə kifayət qədər böyük vəsait ayrılır. Cənab Prezident Davosda "İBM" və "CİSCO" şirkətləri ilə görüşündə vurğulayanda ki, Azərbaycan əhalisinin 70-75 faizinin internetə sərbəst çıxışı var, eyni zamanda, genişzolaqlı internet şəbəkəsinin artıq bütün kəndlərə çatdırılması təmin olunur, çatdırılmayanlar da təmin olunacaq, dövlətin bu barədə siyasi iradəsi və resursları var, həmin şirkətlər həqiqi mənada çox xoş bir təəccüb yaşayırdılar. Onlardan biri Hindistanda həyata keçirdikləri layihələrdən danışırdı və göstərirdi ki, Azərbaycan həmin ölkələrlə müqayisədə həqiqi mənada texnologiyaların, xüsusilə internet texnologiyalarının tətbiqində hansı uğurlu layihələr reallaşdırıb. Su təchizatı məsələsini götürsək, qeyd etmək lazımdır ki, uzun illər Azərbaycanın kəndləri, bölgələri su təchizatından əziyyət çəkib. Azərbaycan olduqca böyük investisiyalar yatırmaqla həmin su problemlərinin həlli üçün çox əhəmiyyətli addımlar atıb.

**-Eyni zamanda, qazlaşdırma sahəsində.**

-Bu ilə qədər Azərbaycan ərazisinin, yaşayış məntəqələrinin, kəndlərinin 90 faizdən çoxu artıq qazlaşdırılıb. Cənab Prezident qarşıya qəti vəzifə qoyub və buna uyğun da vəsait ayrılıb ki, bu il Azərbaycanın bütün bölgələrinin qazlaşdırılması prosesi başa çatsın.

**-Nəzərə alsaq ki, hələ dağlıq ərazilərdən söhbət gedir və orada qazlaşdırma prosesi özü bir qədər çətindir. Amma bu gün qazlaşdırma səviyyəsinin 93 faiz olması və 95 faiz hədəf qoyulması çox böyük bir iradə tələb edir.**

-Burada maraqlı məqam nədən ibarətdir? Bu layihələr Davos görüşlərində müzakirə olunandan sonra görüşdən çıxan həmin şirkətlərin və dövlətlərin nümayəndələrində ən çox təəccüb yaradan məsələ bundan ibarət idi ki, cənab Prezident Azərbaycanda həyata keçirilən bütün layihələri - dəyərindən, iştirakından, yerindən, ərazisindən, əhatə dairəsindən tutmuş o qədər dəqiqliklə bilir ki, həmin şirkətlərin nümayəndələrinin sözlərinə görə, hətta onların icraçı menecerləri belə bu qədər məlumatlı deyil. Azərbaycan Prezidenti az qala hər kənddə hər bir layihənin hansı həcmdə və neçə insanı əhatə edəcək şəkildə həyata keçirilməsi barədə dəqiq məlumatlara malikdir. Təbii ki, Prezidentin bu qədər işin içində olması, bu qədər məlumatlı olması onlarda xoş bir təəccüb yaradır. Bu, ona görə belədir ki, cənab Prezident həm bu layihələrin təşəbbüskarıdır, həm də layihələrin icrasına özü şəxsən yerində nəzarət edir. Cənab Prezident 10 il ərzində ölkənin şəhər və rayonlarına 300-ə yaxın səfər edib, hər kənddə, hər rayonda bu layihələrin icrasının bilavasitə iştirakçısı olub. Dövlət institutlarının fəaliyyəti dünya iqtisadiyyatında qiymət verilən əsas indikatorlardan biridir. Dövlət institutlarının səmərəli inkişafına görə də Azərbaycan ilk 30 ölkənin siyahısına daxil olmaqla, lider ölkələr səviyyəsindədir. İnstitutların səmərəliliyinin artırılmasında cənab Prezidentin bilavasitə gərgin əməyi, özünün bilavasitə nəzarəti və qəbul etdiyi qərarlar həlledici rol oynayır.

**-Natiq müəllim, maraqlı və əhatəli söhbətə görə çox sağ olun.**

## M.Zaxarova: "ATƏT-in Minsk qrupunun həmsədrləri fevralın birinci ongünlüyündə regiona səfər etməyi planlaşdırırlar"

Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə ATƏT-in Minsk qrupunun həmsədrləri tərəflərin problemli məsələlər barədə mövqelərini dəqiqləşdirmək üçün fevralın birinci ongünlüyündə regiona səfər etməyi planlaşdırırlar.

AZƏRTAC xəbər verir ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bunu Moskvada keçirilən brifinqdə bildirib.

M.Zaxarova qeyd edib ki, Rusiya və ATƏT-in həmsədri olan digər ölkələr münaqişə zonasında gərginliyin azaldılması üçün fəal çıxış edirlər. 2016-cı ilin iyun ayında Sankt-Peterburqda Rusiya Prezidentinin Azərbaycan və Ermənistan prezidentləri ilə görüşünün xeyli hissəsi bu mövzuya həsr edilib. RF XİN nümayəndəsi deyib: "Bu mövzu keçən il noyabr ayında Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakıya və Yerevana səfərləri zamanı da müzakirə olunub. ATƏT çərçivəsində müşahidəçilərin fəaliyyətini tənzimləyən sənədin bir neçə variantı hazırlanıb. Yanvarın 18-də Krakovda keçirilmiş görüşdə nazirlər vasitəçilər tərəfindən hazırlanmış yeni təkliflərlə prinsipcə razı olduqlarını bildiriblər. Yalnız bəzi texniki detallar qalıb. Tərəflər həmin detalları razılaşdırdıqdan sonra genişlənmə mexanizmi işə salınacaq".

## Musa Quliyev: "Əhalinin sağlamlığı hər zaman dövlət başçısının xüsusi diqqət mərkəzindədir"

"Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev proqram xarakterli çıxış etdi". Bu fikri YAP Siyasi Şurasının üzvü, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev deyib.

M.Quliyev bildirib ki, dövlət proqramları nəticəsində bölgələrimiz hərtərəfli şəkildə inkişaf edir. Onun sözlərinə görə, ötən dövr ərzində regionlarda minlərlə sosial obyektlər tikilərək əhalinin istifadəsinə verilib. "Konfransda dövlət başçısının vurğuladığı kimi, son 14 il ərzində respublikamızda 642 tibb müəssisəsi tikilib, yaxud təmir edilib. Qarşıdakı dövrdə də investisiya proqramına əsasən sosial infrastruktur quruculuğu davam etdiriləcək. Yeni tibb müəssisələri ən müasir standartlara cavab verir, zəruri texnologiyalarla təchiz edilir. Bundan əlavə, cənab Prezidentin tapşırığı ilə hər il əhalinin pulsuz tibbi müayinəsi həyata keçirilir. Bütün bunlar bir daha təsdiq edir ki, əhalinin sağlamlığı hər zaman dövlət başçısının xüsusi diqqət mərkəzindədir"-deyə, M.Quliyev vurğulayıb.

# Azərbaycan gəncliyi ölkənin bütün sahələrində fəal iştirak edir

## *Nizami rayonunda 2 Fevral Gənclər Günü münasibətilə tədbir keçirilib*




Dünən Nizami rayon icra hakimiyyətinin və Yeni Azərbaycan Partiyası rayon təşkilatının birgə təşkilatçılığı ilə 2 Fevral Gənclər Günü münasibətilə tədbir keçirilib. Tədbirdə YAP Nizami rayon təşkilatı gənclər birliyinin fəaliyyətinə dair hesabat videosu nümayiş etdirilib. Tədbirdə çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, sosial-iqtisadi və digər sahələrində fəal iştirak edir, intellektual imkanları, yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir: "Gənclərimiz ölkəmizi beynəlxalq aləmdə də layiqincə təmsil edir, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, mədəni-mənəvi irsimizin təbliğ olunmasında fəallıq göstərir. Bütün bunlar gəncliyimiz üçün dövlət tərəfindən yaradılan əlverişli imkanlar, verilən mükəmməl təhsil və özünü təsdiqləmək üçün ideal məkan əsasında ərsəyə gəlib. Müasir Azərbaycan gəncləri unutmurlar ki, onlar müstəqil dövlətin azad gəncləri olaraq, bugünkü uğurlara, məhz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kurs nəticəsində, sahib olublar".



YAP Siyasi Şurasının üzvü, partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov çıxışında diqqətə çatdırıb ki, bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində dolğun fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar və sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində, bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib.

YAP Nizami rayon təşkilatı gənclər birliyinin sədri Sevinc Abdullayeva isə, çıxışında qeyd edib ki, Nizami rayon gəncləri üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcək və onlara göstərilən etimadı yüksək səviyyədə doğruldacaqlar.

Nizami rayon icra hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova söyləyib ki, ikinci dəfə hakimiyyətə gələndən sonra dərhal gənclərlə işə başlayan Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətinin gənclərlə bağlı siyasətinin əsasını qoydu. Ulu Öndər Heydər Əliyev Gənclər və İdman Nazirliyini yaratdı, 1996-cı ildən başlayaraq, gənclərin forumları təşkil edildi, 1997-ci ildə isə imzalanan Sərəncamla fevralın 2-si Gənclər Günü elan olundu. Bununla yanaşı, gənclərin inkişafı ilə bağlı imzalanan fərmanlar, sərəncamlar, qəbul edilən proqramlar və qanunlar Azərbaycan gəncliyinin inkişafı yolunda mühüm amilə çevrildi.

Çıxışlardan sonra partiyaya qəbul olunan gənclərə üzvlük vəsiqələri, YAP Nizami rayon təşkilatının nəzdində fəaliyyət göstərən "Heydər Əliyev Məktəbi"nin məzunlarına sertifikatlar, Azərbaycanı beynəlxalq idman arenasında layiqincə təmsil edən partiya fəallarının uşaqlarına və partiyanın rayon təşkilatının ictimai-siyasi həyatında fəallığına görə bir qrup gəncə fəxri fərmanlar və xatirə hədiyyələri təqdim edilib.

**NƏZAKƏT**

# Nazir Şirvanda vətəndaşları qəbul edib

Dünən gənclər və idman naziri Azad Rəhimov Şirvan şəhər Gənclər Mərkəzində Şirvan, Hacıqabul, Neftçala, Saatlı, Sabirabad, Salyan şəhər və rayon sakinlərini qəbul edib. Nazirliyin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, ümumilikdə 20-dən artıq vətəndaşın iştirak etdiyi qəbulda müxtəlif sahələri əhatə edən müraciətlər öz əksini tapıb. Qeyri Hökumət Gənclər Təşkilatlarının yaradılması, müxtəlif layihələrin maliyyələşdirilməsi və onlara dəstək göstərilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, istirahət düşərgələrinin təşkili, Gənclər Mərkəzlərinin müvafiq avadanlıqlarla təmin edilməsi və fəaliyyəti gənclər sahəsini əhatə edən müraciətlər sırasında olub.



İdman sahəsində fəxri adların verilməsi, idman mərkəzlərinin idman avadanlıqları ilə təmin olunması, Olimpiya İdman Komplekslərinin, idman mərkəzlərinin tikintisi və təmiri, Uşaq Gənclər və İdman Mərkəzlərinin (UGİM) və bölmələrin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı və s mövzular vətəndaşlar tərəfindən bu sahədə edilən müraciətlər sırasında öz əksini tapıb. Bir sıra müraciətlər yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyatı qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.



# Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib

Yanvarın 31-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda AMEA Rəyasət Heyətinin növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda AMEA-nın prezidenti, akademik Akif Əlizadə "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" və AMEA-nın adlı mükafatları üzrə müsabiqələrlə bağlı məlumat verib. İclasda "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" və AMEA-nın adlı mükafatları üzrə 2018-ci il üçün müsabiqələrin elan edilməsi haqqında qərarlar qəbul edilib. Bildirilib ki, Ekspert Komissiyasına namizədlərin təqdimatları martın 1-dək göndərilməlidir. Sonra AMEA Biologiya və Tibb Elmləri Bölməsinin (BTEB) hesabatı dinlənilib.

Bölmənin 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti barədə məruzə ilə çıxış edən BTEB-nin akademik-katibi, akademik Əhliman Əmiraslanov bildirib ki, bölmə institutlarında müxtəlif istiqamətlər üzrə 18 problem, 92 mövzu, 245 iş və 468 mərhələni əhatə edən tədqiqatlar aparılıb. Bunlardan altı iş tamamlanıb. Eyni zamanda, bölmədənkənar tibb müəssisələri tərəfindən 32 problem, 137 mövzu, 291 iş və 615 mərhələ üzrə tədqiqatlar həyata keçirilib, onlardan 48 iş və 211 mərhələ tamamlanıb. 2017-ci ildə aqrar elm və təhsil müəssisələrində 27 problem, 101 mövzu, 210 iş və 293 mərhələ üzrə tədqiqat işləri davam etdirilib. Akademik qeyd edib ki, ötən il BTEB-nin institutlarında 1.089, Səhiyyə Nazirliyinin elmi-tədqiqat institutları və Azərbaycan Tibb Universitetində 2.753, aqrar sahə institutları və Azərbaycan Dövlət Aqrar Universitetində isə ümumilikdə 1.496 elmi əsər dərc olunub. BTEB-nin alimlərinin iştirakı ilə 11 dərslik hazırlanıb. Bildirilib ki, 317-si impakt faktorlu jurnallarda olmaqla, ümumilikdə xaricdə 950 məqalə dərc edilib. Sonra geniş müzakirələr aparılıb.

# Əbülfəs Qarayev: "Dəllallıqla məşğul olan turizm şirkətləri məsuliyyətə cəlb olunacaq"

***Turizm fəaliyyəti üzrə lisenziyaların verilməsinin aradan qaldırılmasından sonra bəzi dəllallar ortalığa çıxıb. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Konqreslər Bürosunun "Açıq qapılar" tədbirində mədəniyyət və turizm naziri Əbülfəs Qarayev deyib.***



Nazir bildirib ki, həmin şəxslər insanları aldadırlar: "Guya xidmət göstərirlər, halbuki yalandan qiymətlər verirlər, nəqliyyat təşkil edirlər. Nəticədə Azərbaycan turizminin səviyyəsi enir və biz bundan itiririk. Birləşib normal bir proqram üzərində öz potensialımızı ortaya qoya və həmin məhsulu dünya miqyasına çıxara bilərik. Bunu etsək, həmin dəllal və yalançılar acı nəticələrlə üzləşəcəklər".

Hazırda "Turizm haqqında" yeni qanun layihəsi üzərində iş aparıldığını deyən Ə.Qarayev bildirib ki, bu qanun Azərbaycan turizminin keyfiyyətinin və imicinin qorunması baxımından çox əhəmiyyətli olacaq. "Əgər kimsə beşulduzlu hotel əvəzinə ikiulduzlu hotelin xidmətlərini göstərirsə, deməli, ölçüləri pozur. Əgər hansısa turizm şirkəti dəllallıqla məşğuldursa, insanları aldadırsa, həmin şirkətlər məsuliyyətə cəlb olunacaq. Güzəştə gedilməyəcək. Mən bu qanunun qəbul olunmasını səbirsizliklə gözləyirəm", - deyə nazir qeyd edib.

# Nizami Cəfərov: Azərbaycan Xalq Cümhuriyyətinin yüz illik yubileyi azərbaycançılıq ideologiyasının təntənəsidir

***Prezident İlham Əliyevin Sərəncamına əsasən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi cəmiyyətin bütün təbəqələri, xüsusən elmi ictimaiyyət arasında geniş əks-səda doğurub və böyük rəğbətlə qarşılanıb. Milli Məclisin deputatı, akademik Nizami Cəfərovun AZƏRTAC-a təqdim etdiyi analitik məqaləsində Prezidentin Sərəncamının tarixi əhəmiyyətindən bəhs olunur, Azərbaycan Xalq Cümhuriyyətinin yüz illik yubileyi fonunda azərbaycançılıq ideologiyasının formalaşması və inkişafı mərhələləri araşdırılır.***

Azərbaycan Respublikası öz müstəqilliyinin iyirmi beş illiyindən sonra varisi olduğu Azərbaycan Xalq Cümhuriyyətinin yüz illiyini qeyd etməyə başlayıb, Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub.

Azərbaycançılıq ideologiyasının etnoqrafik kökləri Azərbaycan xalqının tarixinin təşəkkül dövrlərinə gedib çıxsa da, bu ideologiya XIX əsrin sonu, XX əsrin əvvəllərində formalaşıb, Azərbaycan Xalq Cümhuriyyəti illərində (1918-1920) isə ilk dəfə rəsmi şəkildə etiraf olunaraq, xalq kütlələri arasında yayılmağa başlayıb.

Məlum olduğu kimi, azərbaycançılıq ideologiyasının həm ictimai-siyasi baxımdan formalaşıb modelləşməsində, həm yeni yaranmış dövlətin məfkurəsi olaraq siyasi praktikaya tətbiqində, həm də kütləviləşməsində M.Ə.Rəsulzadənin xidmətləri kifayət qədər böyükdür. Lakin bu ideologiyanın təbii-etnoqrafik enerjisi o qədər güclü, xalqın sosial-siyasi, mədəni özünüifadə inersiyasının təzahürü baxımından o qədər vüsətli idi ki, birincisi, onu bir və ya bir neçə şəxsin istedadı (və intellekti) miqyasına sığışdırmaq imkan xaricindədir; ikincisi, XIX əsrin sonu, XX əsrin əvvəllərində onlarla elə görkəmli Azərbaycan ziyalıları yetişmişlər ki, azərbaycançılıq ideologiyasının formalaşmasını onların məfkurə mübarizələrindən kənarda təsəvvür etmək ümumən mümkün deyil və nəhayət, üçüncüsü, belə bir mühüm faktı da nəzərdən qaçırmaq olmaz ki, milli ideologiya axtarışı ehtiyacı XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ictimai varlığının təbiətində, ruhunda idi.

Azərbaycançılıq ideologiyası XIX əsrin sonu, XX əsrin əvvəllərində formalaşdıqdan, yaxud təşəkkül tapdıqdan sonra bir əsrdən artıq mürəkkəb, ziddiyyətli, habelə mənsub olduğu xalqın iradəsini ifadə etdiyindən ardıcıl, davamlı bir təkamül yolu keçib. Bu təkamül yolunun, fikrimizcə, aşağıdakı mərhələləri var:

**1)** XX əsrin 20-ci, 30-cu illəri;

**2)** XX əsrin 30-cu illərinin sonlarından 80-ci illərinin ortalarına qədər;

**3)** XX əsrin 80-ci illərinin ortalarından XXI əsrin ilk illərinə qədər;

**4)** XXI əsrin ilk illərindən etibarən

Azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsi XXI əsrin ilk illərindən başlayır və bizim günlərdə həm inamla, böyük enerji ilə, həm də miqyasını genişləndirərək (və təkmilləşərək) davam edir.

Müşahidələr (və araşdırmalar) göstərir ki, müasir mərhələdə - İlham Əliyev mərhələsində azərbaycançılıq ideologiyasının təkamülünü bir sıra mühüm əlamətlər şərtləndirir ki, onlardan birincisi həmin ideologiyanın tarixinə (bu tarixin bütün yönləri ilə obyektiv öyrənilib mənimsənilməsinə) elmi, ictimai-siyasi və mədəni marağın indiyə qədər görünməmiş bir şəkildə artmasıdır.

Bu gün ölkədəki iqtisadi, ictimai-siyasi və intellektual-mədəni şərait imkan verir ki, azərbaycançılıq ideologiyasının keçdiyi tarixi yol hərtərəfli, dərindən və geniş müzakirələr əsasında necə varsa, o cür araşdırılıb öyrənilsin, xüsusilə gənc nəslin Azərbaycan xalqını, Azərbaycan dövlətini müstəqilliyə gətirib çıxaran milli ideologiya, onun hansı müzakirələrdə, mübahisələrdə və münaqişələrdə formalaşdığı, eləcə də Əli bəy Hüseynzadə, Məhəmməd ağa Şahtaxtinski, Əhməd bəy Ağayev, Nəriman Nərimanov, Məhəmməd Əmin Rəsulzadə, Səmədağa Ağamalıoğlu, Səməd Vurğun, Mirzə İbrahimov, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Anar, Elçin kimi müxtəlif miqyaslı və mövqeli milli ideoloqların təfəkkür tərcümeyi-halları haqqında kifayət qədər aydın (və mükəmməl) təsəvvürləri olsun. Halbuki bu imkan əvvəlki mərhələlərdə ya yox idi, ya da müxtəlif səbəblər üzündən bu və ya digər dərəcədə məhdud olmuşdu.

Azərbaycan Prezidenti İlham Əliyevin 2014-cü il 21 yanvar tarixli Sərəncamı ilə "türk xalqlarının mədəni inteqrasiyasının məfkurə kimi təşəkkül tapmasında mühüm rol oynayan, müasir cəmiyyət quruculuğunda demokratik prinsiplərin ənənəvi dəyərlər zəminində bərqərar olmasının vacibliyini irəli sürən və müstəqil milli dövlətçiliyin nəzəri əsaslarının hazırlanmasında yaxından iştirak edən görkəmli ictimai xadim" Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi müasir Azərbaycan dövlətçiliyinin (və Prezident İlham Əliyevin), ilk növbədə, milli ideologiyanın tarixinə münasibətinin göstəricisidir. Bu sözləri cənab Prezidentin bir sıra digər sərəncamları (xüsusilə, azərbaycançılıq ideologiyasının banilərindən biri olan, uzun illər adının çəkilməsi belə qadağan edilmiş Məhəmməd Əmin Rəsulzadənin yubileyinin keçirilməsi haqqındakı sərəncamı) barəsində də demək olar. Onların hər biri, bir tərəfdən, milli ideologiya klassiklərini geniş ictimai miqyasda tanıtmağa; ikinci tərəfdən, milli ictimai şüuru zənginləşdirməyə, onun polifoniyasını təmin etməyə; üçüncü tərəfdən isə, milli ideologiyanın köklərini, mənbələrini (və ümumən tarixini!) onun müasir təzahür texnologiyaları ilə üzvü vəhdətdə - bir bütöv halında təsəvvür eləməyə münbit (və rəsmi!) şərait yaradır.

Məlum olduğu kimi, istər təşəkkül dövründə, istərsə də müxtəlif təkamül mərhələlərində, xüsusilə XX əsrin 20-ci illərinin əvvəllərindən 70-ci illərinin əvvəllərinə, yəni



Heydər Əliyev dövrünə qədər azərbaycançılıq ideologiyası həm ölkə daxilində, həm də ölkə xaricində (mühacirətdə) biri digərindən, demək olar ki, təcrid olunmuş halda fəaliyyət göstərib. Ölkə daxilində bu ideologiya getgedə məhdudlaşdırılmış, hətta tamamilə unutdurulması üçün hər cür cəhdlər edilmiş, az-çox təzahürləri isə müxtəlif mənəvi-ideoloji istiqamətlərə (məsələn, liberal vətənpərvərlik) yönəldilməklə amorfလaşdırılmış və ya "simasızlaşdırılmışdır" Xaricdə (mühacirətdə) isə sosial bazası olmayan romantik xəyallara çevrilmişdir Bütün hallarda Azərbaycan xalqının milli ideallarının qarşısını həm adminstrativ (aqressiv!), həm diplomatik (aldatma!), həm də ekspressiv (şirnikləndirmə!) yolları ilə məhz sovet-sosialist ideologiyası kəsmiş, lakin milli idealları məhv etmək mümkün olmadığı kimi, milli ideologiyanı da sona qədər unutdurmaq, yaddaşlardan tamamilə silmək mümkün olmamışdır.

Azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsinin ikinci mühüm əlaməti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə, onun milli dövlət quruculuğu fəlsəfəsinə ölkə, eləcə də dünya miqyasında layiq olduğu bir ehtiramla, intellektual-analitik həssaslıqla yanaşılmasıdır. Bu, ona görə zəruridir ki, Heydər Əliyev azərbaycançılıq ideologiyasının bir-birindən əsaslı şəkildə fərqli olan təkamül mərhələlərinin lideri (müəllifi!) olmaqla yanaşı, bu gün davam edən mərhələsinin perspektivlərini də müəyyənləşdirib.

Heydər Əliyevin tarixi xidmətlərinin həm ölkə, həm də dünya miqyasında yüksək qiymətləndirilməsi, geniş təhlil (və təbliğ) olunması azərbaycançılıq ideologiyasının, Azərbaycan xalqının milli ideallarının təntənəsi deməkdir. Heç də təsadüfi deyil ki, bugünkü siyasi leksikonda "heydərəliyevçilik" anlayışı "azərbaycançılıq" anlayışının yeni tarixi şəraitdəki məzmununu (və mahiyyətini!) ifadə edir. İstər sovet dövründəki məlum (və mürəkkəb!) şərtlər daxilində, istərsə də müstəqillik dövrünün ondan heç də az mürəkkəb (və ziddiyyətli!) olmayan illərində ümummilli lider Azərbaycanı Azərbaycan və Azərbaycan xalqını Azərbaycan xalqı edəcək bütün milli mənəvi enerji mənbələrinin tam gücü ilə işləməsi üçün hər cür tədbirləri görməklə azərbaycançılıq ideologiyasını legitimləşdirə, reallaşdıra, beləliklə də, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin cəsarətlə (və qürurla!) "bizim siyasətimiz - bizim işimizdir" deməsinə əsas verə bildi.

Üçüncü mühüm əlamət, heç şübhəsiz, azərbaycançılıq ideologiyasının tərkib hissələri olan türkçülük, müsəlmançılıq və müasirliyin üzvi vəhdətdə, heç birinə digərindən daha böyük üstünlük vermədən, bir bütöv halında qəbul edilərək xalqın milli mənafeləri naminə həyata keçirilməsidir. Bu məsələ ona görə çox əhəmiyyətlidir ki, Azərbaycan xalqı müxtəlif tarixi dövrlərdə (azərbaycançılıq ideologiyasının təşəkkül tapıb formalaşdığı XIX əsrin sonu, XX əsrin əvvəllərindən başlayaraq) gah türkçülüyə, gah müsəlmançılığa, gah da müasirliyə əlahiddə üstünlük verilməsindən irəli gələn ictimai-siyasi problemlərlə üz-üzə dayanmağa məcbur olub. Bunun da mənfi nəticələrini, xüsusilə milli inteqrasiyasının, mütəşəkkilliyin süni olaraq pozulmasını, yaxud zəifləməsini tarix, yəqin ki, həmişəlik öz yaddaşına yazıb.

İlham Əliyevin siyasi-ideoloji fəaliyyətində türkçülük Azərbaycan xalqının öz mənşəyi etibarilə türk etnosundan yaranması həqiqətinin milli ictimai dərkindən başlayıb müasir türk dünyasının üzvi tərkib hissəsi olması, beynəlxalq aləmdə türk dünyasının ortaq maraqlarının cəsarətlə müdafiəsinə qədər gedir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti türk dünyasının öndə gedən liderlərindən biri kimi böyük nüfuz sahibidir.

İslam (müsəlman) dünyasına mənsubluq da bugünkü Azərbaycanın həm mənəvi-mədəni, həm də ictimai-siyasi xarakterində bütün parlaqlığı ilə təzahür edir. İlham Əliyevin müsəlman xalqlarına qarşı müəyyən beynəlxalq dairələrdə aparılan mürtəce, antihumanist kampaniyalara dəfələrlə ən yüksək tribunalardan öz etirazını bildirməsi, Azərbaycanın bir nümunəvi müsəlman ölkəsi olaraq inkişafı buna sübutdur.

Eyni zamanda, bugünkü Azərbaycan xalqı dünyaya açıq, müasir dünyanın iqtisadi, sosial-siyasi və mədəni texnologiyalarını inamla mənimsəyən, onun (müasir dünyanın) qlobal idarəçiliyində get-gedə güclənən imkanları səviyyəsində iştirak edən xalqdır.

Türkçülük, müsəlmançılıq və müasirlik triadası bu gün Azərbaycanda klassik formulunda (və tipologiyasında) tətbiq edilməklə qalmayıb, mərhələnin (və dövrün) tələblərinə uyğun olaraq yaradıcılıqla yaşanır ki, bu da Azərbaycan dövlətinin yürütdüyü tarazlaşdırılmış, humanist və uzaqgörən (mövcud problemlərin tezliklə həllinə yönəlmiş perspektivli) siyasətin nəticəsidir.

Müxtəlif mədəniyyətlərə, dünyagörüşlərinə təmkinli dialoq əsasında hörmətlə yanaşılması, qloballaşan dünyanın çağırışlarına həssas, anlamlı münasibət, multikulturalizm azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsinin, fikrimizcə, mühüm əlamətlərindən dördüncüsü hesab oluna bilər. Nə üçün? Ona görə ki, hər hansı ideologiya, nə qədər mütərəqqi olsa da, özünü təcrid edirsə, həm tarixi (passiv), həm müasir (aktiv), həm də gələcək (perspektiv) çox müxtəlif (biri digərini inkar, yaxud təsdiq edən, yaxud da bir-birinə loyal və ya liberal münasibətlərdə olan) ideologiyalarla hesablaşmazsa, prinsip etibarilə, yaşaya bilməz.

Azərbaycan xalqı (və dövlətçiliyi) tərəfindən azərbaycançılıq ideologiyasının tətbiqi, müdafiəsi və inkişaf etdirilib təkmilləşdirilməsi dünya miqyasında çox müxtəlif (və qaynar!) ideoloji proseslər kontekstində baş verdiyi hamıya məlumdur. Bu proseslər

# Nizami Cəfərov: Azərbaycan Xalq Cümhuriyyətinin yüz illik yubileyi azərbaycançılıq ideologiyasının təntənəsidir

azərbaycançılığı birmənalı inkar edə bilmədiyi kimi, birmənalı təsdiq də edə bilməz. Lakin Azərbaycan xalqının milli ideologiyasının nəinki danılmaz, hətta mübahisəsiz bir üstünlüyü var ki, onun mahiyyətində (fəlsəfəsində və ya metafizikasında) üç tamamilə humanist (və insan cəmiyyətinin təhtəlşüur, yaxud təbii bir şəkildə, "müdaxiləsiz" yaratdığı!) dəyər komponenti ifadə olunur:

**1)** etnik mənsubiyyət;
**2)** dini mənsubiyyət;
**3)** dünyəvi mənsubiyyət.

Bu ideologiyada öz əksini tapmış fəlsəfə və ya metafizikada, eləcə də onun mənsub olduğu (və onu yaradan) xalqın təfəkküründə nə etnik məhdudluq, nə dini dözümsüzlük, nə də antihumanizm yoxdur; yalnız o var ki, Azərbaycan xalqı da, dünyanın bütün digər xalqları kimi, müəyyən bir etnik mənşəyə, müəyyən bir dini dünyagörüşə mənsubdur və bütün digər xalqlar kimi, müasir dünyanın üzvi tərkib hissəsidir

Beşinci əlamət Azərbaycan xalqının dünya miqyasında milli-mənəvi, mədəni bütövlüyünün möhkəmlənməsi üçün ardıcıl mübarizə aparılmasıdır ki, bunun müsbət nəticələrini görməmək mümkün deyil.

Tarixi talelərі elə gətirmişdir ki, azərbaycanlıların və ya Azərbaycan türklərinin bu gün yalnız beşdən biri müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Təxmini hesablamalara görə, dünya azərbaycanlılarının beşdən dördü öz tarixi Vətənində yüz (hətta min!) illərlə necə məskun olmuşdursa, bu gün də məskundur Ona görə də əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş bir siyasətin - Dünya azərbaycanlılarının həmrəyliyinin miqyasının genişləndirilməsi siyasətinin müasir mərhələdə Azərbaycan dövlətçiliyi tərəfindən uğurla davam etdirilməsi heç bir alternativ qəbul etməyən bir zərurət olub azərbaycançılıq ideologiyasını zənginləşdirən, ona güclü enerji verən, onun məzmununu (hətta fəlsəfəsini) bütövləşdirən konseptual hadisədir. Hər şeydən əvvəl ona görə ki, dünyanın harasında məskunlaşmasından asılı olmayaraq, kiçik istisnaları nəzərə almasaq, azərbaycanlılar eyni etnik mənşəyə, eyni dinə mənsub olub eyni mental xüsusiyyətlərin, eyni adət-ənənələrin daşıyıcısıdırlar. Onların eyni bir dilləri - Azərbaycan dili, yaxud Azərbaycan türkcəsi mövcuddur

Əlbəttə, qloballaşan müasir dünyada azərbaycanlıların siyasi-inzibati sərhədləri aşaraq bir-birləri ilə sıx ünsiyyətə girmələri, ümummilli maraqlarını humanizm, beynəlxalq insan hüquqları prinsipi çərçivəsində təmin etmələri yalnız milli yox, həm də insani (ümumbəşəri!) bir ehtiyacdır ki, əlahiddə hadisə olmayıb bütün millətə xasdır

Azərbaycan xalqının (və insanının) dünyanın inkişaf etmiş xalqları (və insanları) ilə müqayisədə ikinci, hətta üçüncü dərəcəli olması kompleksinin sürətlə aradan qaldırılması baxımından görülən işlərə (və onun uğurlu nəticələrinə), fikrimizcə, altıncı əlamət kimi baxmaq olar.

Etiraf etməliyik ki, azərbaycanlılarda uzun on illər (hətta əsrlər!) belə bir kompleks olmuşdur. Ziyalıların öz ana dillərindən (və prinsip etibarilə, mənsub olduqları xalqdan) imtina edib müxtəlif əcnəbi dillərdə danışıb yazmaları, özlərinə əcnəbi soyad formaları qəbul etmələri və s. həmin "gerilik" kompleksinin təzahürləri (və nəticələri) idi ki, milli tarixin son mərhələsinə qədər bu və ya digər dərəcədə davam edirdi Ancaq bu gün heç bir azərbaycanlı özünü nə bir rusdan, nə bir almandan, nə bir fransızdan, nə də bir ingilisdən aşağı hesab etmir və milli qürur yalnız sözdə deyil, həm də işdə, əməldədir. Ölkədə abadlaşan, "yeni rəmzlər"ini yaradan şəhərlər (xüsusilə Bakı!), kəndlər, çəkilən yollar, yaradılan təhsil müəssisələri, tətbiq edilən müasir idarəçilik texnologiyaları, dünya standartları ilə müqayisə olunan müxtəlif təsisatlar, idmanda, mədəniyyətdə indiyə qədər bu miqyasda görünməmiş beynəlxalq uğurlar Azərbaycan insanını mənən, ruhən yüksəldən, əgər belə demək mümkünsə, onun katarsisini təmin edən elə hadisələrdir ki, yalnız bu günlə məhdudlaşmayıb onun (Azərbaycan insanının) gələcək taleyini, xarakterini müəyyən edir. Bu taleyüklü işlər, əməllər Azərbaycan xalqının tarixində həmişəlik olaraq İlham Əliyevin adı ilə qalacaqdır

Azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsinin yeddinci əlaməti həm iqtisadi, həm siyasi, həm də mədəni sahələrdə (bu sahələrin təsəvvürə gətirilməsi belə çətin olan çox geniş spektrində) beynəlxalq əlaqələrin, başqa sözlə, Azərbaycan-Dünya dialoqunun zəngin təcrübəsinin qazanılmasıdır. Bu isə ilk növbədə o deməkdir ki, azərbaycançılıq ideologiyası (və Azərbaycan xalqının milli ideal-ları), bir vaxtlar olduğu kimi, məhdud bir miqyasda qalıb, "özümüz deyib, özümüz eşidək" prinsipi ilə mövcud olmur, universallaşır, hüdudlarını genişləndirir, ümumən insan (və dünya) təfəkkürü mövqeyindən görünüb etiraf olunur Tarixi (və cari) rəqibləri açıq mübarizəyə çəkir, onların hansısa gizli "laboratoriyalar"da hazırlanmış məkrli planlarını alt-üst edir.

Beynəlxalq "Dialoq"lara ev sahibliyi edən Azərbaycan indiyə qədər görünməmiş bir miqyasda müxtəlif ideyaların, ideologiyaların həmsöhbət olmasına inamla münsiflik etdikcə, azərbaycançılıq məfkurəsi də zənginləşir, beynəlxalq nüfuzunu gücləndirir, yüksək standartlı paradiqmalara yiyələnir

Səkkizinci əlamət Azərbaycan xalqının intellektual səviyyəsinin yüksəldilməsi, müasir texnologiyalara yiyələnməsinin sürətlənməsi, perspektivli özünüifadə (və özünütəsdiq) metodlarının, üsullarının və vərdişlərinin xüsusilə gənc nəsil tərəfindən mənimsənilməsidir. Etiraf etmək lazımdır ki, azərbaycançılıq ideologiyasının gənc nəsil tərəfindən bu qədər kütləvi (və intellektual!) səviyyədə mənimsənilməsi heç bir mərhələdə mümkün olmayıb

Azərbaycanın regionda, ümumən beynəlxalq aləmdə söz sahibi olması, onun mövqeyi ilə hesablaşılması, çoxstandartlılığı, xüsusilə cari konyukturluluğu ilə tanınan dünyanın "haqq-hesab"ından kənarda qalıb təcrid olunmaması, çox güman ki, doqquzuncu əlamətdir. Bu əlamətin özünəməxsusluğu ondan ibarətdir ki, Azərbaycan xalqının milli ideologiyası çevik, elastik, diplomatik resurslara yiyələnmiş, hər hansı "gözlənilməz" ideoloji hücumlara qarşı müqavimət (hətta əks-hücum) "immunitetlər"i qazanmışdır

Nəhayət, Azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsinin onuncu əlaməti həmin ideologiyanın inkişafı üçün geniş perspektivlər təmin etməsidir ki, bu, milli ideologiyanın (azərbaycançılığın) gələcəyi barədə tamamilə nikbin fikirdə olmağa hər cür imkanlar verir. Xüsusilə o mənada ki, azərbaycançılıq ideologiyası qarşısında bu gün polemika üçün hüdudlar qoyacaq heç bir maneə, yaxud həmin ideologiyanın təkamülünü ya ləngidəcək, ya da süni şəkildə sürətləndirəcək heç bir konyuktur müdaxilə yoxdur.

Azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsi özünəməxsus dinamizmi ilə zənginləşməkdə, milli ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdədir. Odur ki, Azərbaycan Xalq Cümhuriyyətinin yüz illik yubileyi Azərbaycan xalqının (və dövlətinin) tarixinin elə bir dövründə keçirilir ki, ən azından üç baxımdan xüsusi (tarixi!) məna- məzmun kəsb edir:

1) Azərbaycan Xalq Cümhuriyyətinin "tərcümeyi-hal"ı, son illərdə demək olar ki, bütün tərəfləri ilə dərindən öyrənilmiş, onun güclü (və "zəif") cəhətləri konkret sənəd və materiallar əsasında Azərbaycan tarixçiləri tərəfindən obyektiv araşdırılmış, dünya tarixşünaslığında bu barədə kifayət qədər aydın təsəvvür formalaşmışdır;

2) müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətini özünün hüquqi-tarixi varisi elan etdiyindən, eləcə də Cümhuriyyət tarixi hərtərəfli öyrənildiyindən o, milli ictimai təfəkkürün yaddaş potensialının üzvi tərkib hissəsinə çevrilmiş, hər bir Azərbaycan vətəndaşının qürur mənbəyi olmuşdur;

3) ən başlıcası isə odur ki, Azərbaycan xalqı (və dövləti) Xalq Cümhuriyyətinin yubileyini həm iqtisadi, həm siyasi, həm də mədəni inkişaf sahələrində həmin Cümhuriyyətin ideallarına layiq səviyyədə böyük uğurlarla qeyd etməklə milli azadlıq və dövlət müstəqilliyi uğrunda mübarizənin necə bir etibarlı varisi olduğunu, bu mübarizənin hansı mükəmməl nailiyyətlərə gətirib çıxardığını bir daha bütün miqyası ilə göstərir.

İnamla demək olar ki, Azərbaycan Xalq Cümhuriyyətinin yüz illik yubileyi müstəqil Azərbaycanı yaradıb inkişaf



## Bu qədər çox "cümhuriyyətçisinizsə"...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Hər il olduğu kimi, bu il də axecepeçilər və müsavatçılar ADR-in qurucusu Məhəmməd Əmin Rəsulzadənin doğum günündə (elə anım günlərində olduğu kimi-R.) onun Novxanıda yerləşən abidəsi önünə ayrı-ayrılıqda getdilər. Ümumiyyətlə, özlərini "Rəsulzadə-Elçibəy" yolunun davamçıları adlandıraraq, azsaylı tərəfdarları qarşısında dividend yığmağa çalışan bu iki düşmən siyasi zümrə istər 2013-cü il seçkilərindən sonra, istərsə də həmin ilə qədər aralarında baş vermiş çoxsaylı münaqişələrdən dolayı "tarixi lider" adlandırdıqları M.Ə.Rəsulzadənin abidəsi önünə ayrı-ayrı gediblər. Halbuki yeni qarşıladığımız 2018-ci il ölkə rəhbərliyimiz tərəfindən "Cümhuriyyət İli" adlandırılıb və xalqımız ona məxsus bu şanlı tarix səhifəsini cari il boyunca qeyd edəcək. İstər dövlət tədbirləri baxımından, istərsə də xarici ölkələrdə "Cümhuriyyət İli" möhtəşəmliklə keçiriləcək.***

### Belə bir qələti etmək

Fəqət, bu gün həmin şanlı tarixi və bu tarixi yazanların əsas şəxsiyyəti hesab edilən M.Ə.Rəsulzadəni hər zaman özünküləşdirməyə, şəxsiləşdirməyə cəhdlər göstərən AXCP və Müsavat kimi partiyaların "liderləri" unudurlar ki, onlara bu milli tariximizi xalqın əlindən almağa kimsə haqq verməyib! Halbuki istər Əli Kərimli, istər Arif Hacılı, istər İsa Qəmbər, istərsə də Cəmil Həsənli və sairləri, belə təsəvvür etmək mümkündürsə, etdikləri hər bir çıxışlarında ağızdolusu öz siyasi qurumlarını cümhuriyyətin davamçısı olaraq əxz edirlər. Əlbəttə, belə bir qələti etmək onlara yalnız mənfi rəy verir və heç bir halda, bu qəbul oluna bilməz. Bu zaman sual yaranır, əcəba, əgər sizlər tutaq ki, cümhuriyyətin qurucusuna və cümhuriyyətə bu qədər bağlısınız, bəs nəyə görə "tarixi liderimiz" dediyiniz M.Ə.Rəsulzadənin abidəsi önünə ayrı-ayrı gedirsiniz? Demək, belə qənaətə gəlmək olar ki, onlar, sadəcə, bu tarixi ad üzərində açıq-aşkar oyunbazlıq edirlər, hətta təlxəkliklərə belə yol verirlər! Gah "Boz Qurd" işarəsi ilə, gah da "Çırpınırdı Qara dəniz" avazı ilə artistlik etməklə özlərini daha gülünc vəziyyətə qoyurlar.

### Yaxşı edirsiniz!

Təsəvvürünüzə gətirin, əvvəlcə müsavatçılar öz şüarlarını qışqıra-qışqıra Novxanı kəndindəki küçələri keçirlər və M.Ə.Rəsulzadənin abidəsi önündə bir-iki kəlmə meydan təfəkkürlərini ortaya qoyurlar, ardınca isə axecepeçilər eyni halı təkrar edirlər - ayrı-ayrılıqda. Onda yenə də belə bir sual vermək lazım gəlir, a "bəylər", bu qədər "cümhuriyyətçisinizsə", gəlin bir araya, amma gələ bilmirsiniz, hətta M.Ə.Rəsulzadənin də ruhu qarşısında bir-birinizə söyür, təhqir edir, əl qaldırıb, şillə-təpik atırsınız! Yaxşı edirsiniz, əslində, xalq bir daha sizlərin maskası yırtılmış simasızlığınızı görür və növbəti dəfə dərk edir ki, sizlərdən nə dövlət, nə millət sevən çıxmaz, necə ki, çıxmayıb da. Ona görə də, yaxşısı budur ki, qırın bir-birinizi, bəlkə sağlam düşüncəli cəmiyyət siyasiləşmiş mikroblardan təmizləndi...

# Dini radikalizmlə mübarizədə dini icmaların üzərinə böyük məsuliyyət düşür



***Yanvarın 31-də Xızı Rayon İcra Hakimiyyəti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda seminar-müşavirə keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, rayondakı Heydər Əliyev Mərkəzində keçirilən seminar-müşavirədə icra hakimiyyətinin və DQİDK-nın nümayəndələri, dini icma rəhbərləri, rayon ziyalıları, eləcə də gənclər iştirak ediblər.***

Tədbirdə çıxış edən Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, bu gün isə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. O, milli mənəvi dəyərlərimizin zənginliyindən, qədim zamanlardan bəri ölkəmizdə formalaşan multikultural ənənələrdən söz açıb. Qeyd edib ki, vətəndaşlarımızın milli mənəvi dəyərlərimizin, tolerantlıq ənənələrinin qorunub saxlanılmasında, həmçinin radikalizmə qarşı mübarizədə fəal iştirakı zəruridir. Bu səbəbdən belə seminar-müşavirələrin, "dəyirmi masalar"ın keçirilməsi gənclərin maarifləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Ulu Öndərimizin uzaqgörən siyasətinin dini dəyərlərimizin dirçəlməsinə yönəldiyini, onun milli mənəvi dəyərlərimizə hər zaman hörmət və qayğı ilə yanaşdığını vurğulayıb. Bildirib ki, bu nümunəvi siyasətin dövlətimizin başçısı tərəfindən uğurla davam etdirilməsinin, dövlət-din münasibətlərinin sağlam təməllər üzərində qurulmasının nəticəsi olaraq bu gün ölkəmizdə dini baxımdan stabillik mövcuddur.

Dövlət Komitəsi sədrinin birinci müavini diqqətə çatdırıb ki, milli mənəvi dəyərlərimizin qorunub saxlanılması, dini dözümlülük, tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsi, o cümlədən dini radikalizmin, ekstremizmin qarşısının alınması sahəsində maarifləndirmənin alternativi yoxdur. O, maarifləndirmə tədbirlərinin kəmiyyət və keyfiyyətinin artırılmasının Dövlət Komitəsinin bundan sonrakı fəaliyyətinin də əsas istiqamətlərindən biri olduğunu bildirib. S.Salahlı dini maarifləndirmə işinin aparılmasında dini icmaların da üzərinə böyük vəzifə və məsuliyyət düşdüyünü qeyd edib, onları müasir dövrün bəlası hesab edilən dini radikalizmə, xurafata yol açan amillərin qarşısını almaqda, gənc nəsli milli mənəvi dəyərlər ruhunda yetişdirməkdə fəal olmağa çağırıb.

DQİDK-nın dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov dini radikalizmin ictimai təhlükəsizliyə təsiri barədə danışıb. O, dini ekstremizmin yayılmasının qarşısının alınması və gənclərə sirayət etməməsi üçün həyata keçirilən dini maarifləndirmənin önəminə diqqət çəkib. DQİDK-nın şöbə müdiri radikal dini təbliğata qarşı ənənəvi İslam dininin prinsiplərinin və sağlam ideyalarının təbliğinin əhəmiyyətinə toxunub. Seminar-müşavirə iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# "Azərbaycanda balanslı və dayanıqlı iqtisadi inkişaf formalaşır"



"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı "Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans son 4 ildə həyata keçirilən fəaliyyət və 14 il ərzində görülən işlər geniş müzakirə olundu". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Vüqar Bayramov deyib.

Onun sözlərinə görə, Azərbaycan 2004-cü ildən başlayaraq regionların sosial iqtisadi inkişafına töhfə verən Dövlət Proqramları həyata keçirir və bu proqramlar həyata keçirilən zaman ötən müddət ərzində 231 milyard dollardan artıq investisya cəlb olunub: "Bunlardan yarısı xarici investisyalardır. Digər yarısı isə daxili mənbələr hesabına formalaşıb. Bu baxımdan nəticələr, rəqəmlər göstərir ki, Dövlət Proqramlarının icrası həm regionlarda infrastrukturun formalaşmasında, investisyaların cəlb olunmasında imkan yaradır həm də balanslı iqtisadiyyatın formalaşmasına töhfə verir. Çünki əsas məqsədlərdən biri də balanslı iqtisadiyyata malik olmaqdan ibarətdir. Regionlar ilə Bakı arasında fərqin azaldılması və balanslı iqtisadi inkişafın dəstəklənməsi istiqamətində bir sıra addımlar həyata keçirilir. Bu regionların inkişafı ilə bütövlükdə Azərbaycanın sahibkarlığın inkişafına hesablanan islahatlardır. O cümlədən, investisya təşviqi sənədinin tətbiq edilməsi, sahibkarlara ixrac subsidiyalarının verilməsi, sahibkarların xüsusən də aqro-parkların və sənaye məhəllələrinin çərçivəsində sahibkarlıq fəaliyyətinin dəstəklənməsi aiddir. Bu baxımdan proqramın yekunları göstərir ki, regionlarla Bakı arasında fərqin aradan qaldırılması prosesi güclənib. Azərbaycanda balanslı və dayanıqlı iqtisadi inkişaf formalaşır".

# "Sarkisyan narahatdır"




"ABŞ Maliyyə Nazirliyinin gələcəkdə sanksiyalarla üzləşə biləcək rusiyalıların yer aldığı "Kreml siyahısı" açıqlanar-açıqlanmaz prezident Serj Sarkisyanın Ermənistanın Xarici İşlər Nazirliyinə gedərək orada milli təhlükəsizlik strategiyasına dəyişiklik etmənin vaxtının çatdığını bildirməsi, fikrimcə, elə-belə deyil". SİA-nın verdiyi məlumata görə, bunu açıqlamasında millət vəkili Sahib Alıyev deyib.

Onun sözlərinə görə, Sarkisyanın narahat olduğu hiss olunur: "Ona görə narahatdır ki, birincisi, ABŞ Rusiyaya qarşı sanksiyanı sərtləşdirəcəyi halda, onun forpostunun da bundan zərbə yeyəcəyi şəksizdir. İkincisi, "Kreml siyahısı"nda erməni əsilli bir neçə iş adamı var ki, onlar Sarkisyanla ortaqdırlar. Bu adamlardan bəziləri həm orada hakimiyyətin formalaşmasında müəyyən rol oynayırlar, həm də Ermənistanla Rusiya arasında bütün açıq və gizli iqtisadi əlaqələr, o cümlədən də indiyədək tətbiq olunan sanksiyalardan yayınılmasına xidmət edən qaranlıq maliyyə əməliyyatları onların vasitəsilə reallaşdırılır. Yeri gəlmişkən, həmin adamlardan biri oğrubaşı kimi tanınan Robson ləqəbli Ruben Tatulyandır. Müxtəlif cinayətlərdə adı hallandırılan bu soçili erməni Ermənistanın diplomatik pasportunu daşıyır və deyilənə görə, həm də forpostun xarici işlər naziri Nalbandyanın müşaviridir".

# Vüqar Rəhimzadə: "Son 14 il müasir Azərbaycanın inkişaf tarixində mühüm dövrdür"



"Cənab İlham Əliyevin 2003-cü ildə xalqımızın böyük əksəriyyətinin səsi ilə Prezident seçilməsindən sonra Azərbaycan inkişafın yeni mərhələsinə qədəm qoydu. Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan uğurlu islahatlar dövlətimizin başçısı Cənab İlham Əliyev tərəfindən daha dinamik və çoxşaxəli şəkildə davam etdirildi. Məhz ötən 14 ilin ictimai-siyasi, həmçinin, sosial-iqtisadi mənzərəsinə, statistik göstəricilərinə nəzər yetirdikdə, bir daha bu reallığın şahidi olursan." Bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycanın son 14 ildə dünya miqyasında əldə etdiyi uğurlar, məhz Möhtərəm Prezidentimizin adı, Onun uğurlu daxili və xarici siyasəti ilə bağlıdır: "Bu günlərdə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda Möhtərəm Prezidentimiz İlham Əliyevin dərin məzmunlu çıxışı ölkəmizin ötən dövrdəki inkişaf istiqamətlərinə, əldə olunan möhtəşəm uğurlara bir daha işıq saldı. Dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası çox uğurla gedir. Bu mənada, Üçüncü Proqram da uğurla icra edilir, qarşıda duran bütün vəzifələr icra edilir."

V.Rəhimzadə vurğulayıb ki, Möhtərəm Prezidentimiz verdiyi bütün vədləri artıqlaması ilə yerinə yetirib, gördüyü işlərlə, imza atdığı qlobal layihələrlə dünya miqyasında nüfuzlu lider, ölkə daxilində qətiyyətli, uzaqgörən rəhbər olduğunu təsdiq edib: "Cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olmağı bacardı. Möhtərəm Prezidentimiz ötən 14 ildə iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə dövlətçilik və milli maraqlarımızı qorudu, vətəndaşların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində mühüm islahatlar apardı, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi yolunda səylə və var qüvvəsi ilə çalışdı. Nəticə isə göz qabağındadır. Ötən 14 ildə iqtisadiyyat 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı 2,8 dəfə artıb. Sənaye sahəsində 2,6 dəfə artım var, kənd təsərrüfatında 1,7 dəfə, qeyri-neft məsullarının ixracında isə 4,1 dəfə artım qeydə alınıb."

V.Rəhimzadə əlavə edib ki, Azərbaycan ötən 14 ildə böyük və şərəfli yol keçib: "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda çıxışı zamanı, Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, 2004-cü ildə valyuta ehtiyatlarımız 1,8 milyard dollar idi. Bu gün isə bizim valyuta ehtiyatlarımız 42 milyard dollara bərabərdir. Bu mənada, 14 ildə valyuta ehtiyatlarımız 23 dəfə artıb. Bununla yanaşı, 14 ildə ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulub. Xüsusi olaraq, vurğulamaq lazımdır ki, ölkəmizə yatırılan sərmayənin 93 faizi son 14 il ərzində qoyulub. Sözsüz ki, yüzlərlə bu cür fakt sadalamaq olar. Bütün bunlar isə, bir daha son 14 ilin müasir Azərbaycanın inkişaf tarixində mühüm dövr olduğunu bir daha təsdiq edir."

# Tanınmış kinorejissor İrina Poplavskayanın filmi Bakıda nümayiş edilib

"YARAT" Müasir İncəsənət Mərkəzində Dağıstan Respublikasının Azərbaycandakı nümayəndəliyinin birgə əməkdaşlığı ilə "Dağlı qız" filmi nümayiş olunub. AZƏRTAC xəbər verir ki, "YARAT" Film Klubunun təşəbbüsü ilə təqdim edilən ekran əsəri adət-ənənələrə qarşı çıxan və sevilməyən insanla evlənməkdən imtina edən bir qızdan bəhs edir. Kinorejissor İrina Poplavskaya tərəfindən lentə alınan ekran əsərinin məzmunu Dağıstanın Xalq Şairi Rəsul Həmzətovun eyniadlı poemasının süjetindən götürülüb. Film XX əsrinin 70-ci illərində ekranlaşdırılsa da onun mövzusu hələ də aktuallığını itirməyib.

***Sənətin qaranquşu. Bu hər bir sənətkarın ünvanına şamil olunan fikir deyil. Sənət fədaisi olan, eşqini, vücudunu sənətə bağlayan və nəsillər üçün yaşanacaq əsərlər yaradan insanlara şamil olunur. Dünyadan köçəndə ömrünü əsərlərinə qoymuş belə insanlar müasirlərimiz olurlar. Elə Elza İbrahimova kimi. “Yoxluğunu bilə-bilə” müasirimizdir. Duyğuların-hisslərin tərcümanı olan notlar vasitəsi ilə incə qəlbinin səsi qulağımızdadır. Ruhu oxşayan mahnıları ilə “gecələr bulaq başı”na yol alanlar Elza İbrahimovanı duyur, onun həsrət və intizar dolu musiqisində özlərini taparaq, bu böyük bəstəkarın həmdəminə çevrilirlər. Bir ömürlük məhəbbətindən söz açaraq, neçə-neçə qərinəlik, əsrlik məhəbbəti bəstələrinə köçürdü. Sənətkar üçün açılan geniş imkanlar, yaradıcılıq yolu onu əbədi yaddaşlara köçə biləcək xalqın bəstəkarına - Elza İbrahimovaya çevirdi.***



# Elza İbrahimova-80

## *Mənəvi saflıq dünyamız*

Hər kəsin qibtə edə biləcək musiqinin həzin melodiyasına öz musiqisini, ürək döyüntüsünü və pıçıltılarını yaza bildi. Özü də böyük eşq ilə - Vətən eşqi ilə. “Ey vətən” əsəri bütün dünyada Azərbaycanı tərənnüm edən mahnılardan biri oldu. “Nəğmə dolu bir ürəyəm” torpağına baş əyərəm, ey vətən” deyərək Azərbaycanın xalq artisti Rəşid Behbudov dünyanı qarış-qarış gəzdi. Ölməz sənətkar Rəşid Behbudovun ifa etdiyi “Ey vətən!” mahnısı Odlar Yurdunun vizit kartına çevrildi. Azərbaycan tərənnüm olundu. Azərbaycanın tərcümanı oldu. Tərcüməsiz bir dil ilə - musiqi dili ilə. Böyük şövq ilə, böyük sevgi ilə. Elza xanımın vətən sevgisinin ali hissləri ilə. Dünyada bundan böyük sərvət ola bilərmi ki, sevgidən yoğrulmuş hissləri musiqinin sədaları altında dünyaya bəyan edəsən. Elə hər ikisi xoşbərt sənətkar idi ki, özlərində sonra belə böyük bir irsin sahibi olaraq tarixiləşiblər.

Sadə, gözəl Elza xanım zərif bir qadın olaraq çöhrəsindəki, vücudundakı o gözəlliyi musiqi dünaymıza gətirdi. Sirli-soraqlı musiqi dünyamıza. Bu gün 80 yaşını yadigar qoyduğu əsərləri ilə, Elza xanımın könül dünyası ilə qeyd edirik. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyev Elza İbrahimovanın 80 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən bəstəkarın yubiley tədbirləri təntənəli olaraq keçiriləcək. Əlbəttə ki, uşaqlıq illərində yaddaşımızın dərin qatlarına çökən say-seçmə musiqi məllifini yad etmək ən xoş duyğudur. Sevə-sevə dinləyiyimiz onun musiqisi bizi yaşadıb, zövq və ilham verib. “Ana laylası”, “Gecələr bulaq başı”, “Qayıt”, “Ey vətən!” və onlarca belə nəğmələri ilə bizlərə həyat yolunda bir işıq oldu. Nəğməli dünayda boy atdıq. Şübhəsiz ki, Elza xanımın belə lirik lövhələri, musiqini yaratması isdedadı, gücü, Tanrının vergisi olsa da, yaşam tərzi, təhsili və əhatə olunduğu mühit də şərtdir.

Azərbaycanın tanınmış bəstəkarı, xalq artisti, əməkdar incəsənət xadimi Elza İbrahimova musiqinin ən müxtəlif janrlarında yüksək bədii təsir gücünə malik və mənəvi saflıq aşılayan çox sayda dərin məzmunlu əsərlər müəllifi kimi musiqi tariximizdə yer alıb. Əlbəttə ki, bəstəkarın uzun illər görkəmli ifaçıların repertuarını daha da zənginləşdirmiş mahnıları müasir Azərbaycan musiqi sənəti xəzinəsinin dəyərli nümunələri olub, özünə xas lirizmi və melodikliyi sayəsində dinləyicilərin böyük rəğbətini qazanmışdır. Tərcümeyi-halına qısa şəkidə nəzər salsaq bu ilhamın hardan və necə qaynaqlanması göz önündə canlanar. Kimdir Elza xanım və həyat yolu haradan, necə başlayıb?! 1938-ci ildə Hacıqabul şəhərində anadan olan E.İbrahimova kiçik yaşlarından musiqiyə həvəs göstərmişdir. Bakıda 8 saylı Musiqi Məktəbini, 1957-ci ildə Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinin bəstəkarlıq sinfini, 1964-cü ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) bəstəkarlıq şöbəsini bitirib. Onun diplom işi “Fortepiano və orkestr üçün konsert” təkcə müəllimi Qara Qarayev deyil, maestro Niyazi tərəfindən də yüksək qiymətləndirilmişdi. Niyazi bu haqda demişdi: “Maraqlıdır, ancaq fortepiano fakturalı pianoçu üçün mürəkkəb əsərdir”. Bu nailiyyətə Qara Qarayev də münasibətini bildirmişdir.

Onun özündən böyük bacısı və kiçik qardaşı var idi. Amma onlar bu yolu sənət yolu seçmədilər. Anası həkim idi. Atası da başqa sahənin mütəxəssisi idi - dəmiryolçu idi. Amma Elza xanım tamamilə başqa bir sənənin yolçusu oldu. Bu yol sənət yolu, musiqili - bir yol idi. Addımlamaq həm çətin, həm də rahat idi. Elza xanım uğurlar qazandı bu yoldu. Milyonların sevimlisinə çevrildi. Akademik və mahnı janrında olan əsərləri ilə. Düzdür, Elza İbrahimovanın yaradıcılığında mahnı janrı üstünlük təşkil edir və ilk mahnısını 1968-ci ildə yazıb. Bir il sonra o, milli radioda səslənib. Şair Məmməd Rahimin sözlərinə bəstələnmiş “Yalan ha deyil” mahnısının ilk ifaçısı Azərbaycanın xalq artisti Şövkət Ələkbərova olub. Azərbaycanda tanqo ritmini estradaya gətirən ilk bəstəkarlardan biri olan Elza İbrahimovanın Rəfiq Zəkanın sözlərinə bəstələdiyi “Qurban verərdim” əsəri Sovet dövründə bədii şura tərəfindən o qədər yaxşı qarşılanmasa da, xalqın zövqünə çox yaxın oldu. Elza xanım müsahibələrindən birində bununla bağlı belə deyirdi: “Tanqonu uşaqlıqdan sevirəm. Argentina tanqosuna necə biganə qalmaq olar axı? İllər əvvəl mərhum Rəfiq Zəka “Qurban verərdim” şeirini mənə göstərərkən, nə vaxtsa həmin sözlərə musiqi bəstələyəcəyim heç ağlıma da gəlməzdi. Üstəlik, tanqonun “burjua” ahənginin sovet ruhuna uyğun gəlmədiyini deyirdilər”. Amma istək və sevgi hər bir şeyin əldə olunmasına yollar açır. Sonradan “Qurban verərdim”lə bərabər “Sən mənə lazımsan”, “Bağçadan keçmisən” və sair tanqo ritmində yazılmış musiqilər bəstəkarın sevilən mahnıları siyahısına daxil olur. Bu mahnıları Azərbaycanın görkəmli ifaçıları Rəşid Behbudov, Şövkət Ələkbərova, Oqtay Ağayev, Gülağa Məmmədov, İslam Rzayev və başqaları oxuyublar. Yaradıcılığında təkcə estrada janrı ilə kifayətlənməyən bəstəkar diplom işi üçün yazdığı fortepiano və orkestr üçün üçhissəli konsert, “Afət”, “Şeyx Şamil” və “Yanan laylalar” operalarının, həmçinin, Azərbaycanda neft sənayesinin 130 illiyi münasibəti ilə neftçilərə həsr olunmuş himnin də müəllifidir. Yaradıcılığında bir-birindən maraqlı, orijinal mahnılarla bərabər romanslar, sonatalar, kvartetlər də bəstələyib. O, Azərbaycan şairlərinin yüzlərlə şeirlərinə və rus dillərində onlarla poetik nümunəyə musiqi yazıb. Ən böyük arzusu isə Qarabağ mövzusunda olan “Yanan laylalar” əsərini Opera və Balet Teatrının səhnəsində görmək idi. Təəssüflə də olsa da, bildirək ki, bu “Yanan laylalar”ın səhnə tamaşasına baxmaq ona nəsib olmadı.

Onun tərcümeyi-halından, onu da oxuyuruq ki, E.İbrahimova 1992-ci ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi adına, 2008-ci ildə isə Azərbaycan Respublikasının Xalq artisti adına layiq görülüb. Görkəmli bəstəkar uzun sürən xəstəlikdən sonra 11 fevral 2012-ci ildə 74 yaşında vəfat edib. Bu cismani ölümdür. Sözü-söhbəti musiqsində və notların yaddaşında qalıb. Həzin-həzin qulağımıza səsi çatır. Bu səs onun şirmayi barmaqlarından süzülüb gəlib və “Gül açar dünya gülər, aləmə nur tökülər sən yadıma düşəndə”, - deyir.

“Gözləyəcəm səhər-axşam,
yoxluğunu bilə-bilə”
Yanağımda göz yaşlarım düzülübdür gilə-gilə,
Gözləyirəm gəlib siləsən yoxluğunu bilə-bilə,
Ürəyimi eyləyib şam, zülmətlərdə dayanmışam,
Gözləyəcəm səhər-axşam, yoxluğunu bilə-bilə.

***Zümrüd BAYRAMOVA***

# ADU ilə Kiyev Milli Linqvistik Universiteti arasında müqavilə imzalanıb



Azərbaycan Dillər Universiteti (ADU) beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində növbəti addım atıb. Dünyanın bir sıra ali təhsil müəssisələri ilə əməkdaşlıq edən ADU yanvarın 30-da Ukraynanın Kiyev Milli Linqvistik Universiteti ilə də “Beynəlxalq əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında” müqavilə imzalayıb. İki nüfuzlu ali təhsil müəssisəsi arasında təhsil və elm sahələrində uzunmüddətli əməkdaşlığı, qabaqcıl təcrübənin tədris prosesində tətbiqini, akademik, elmi və mədəni əlaqələrin qurulmasını nəzərdə tutan bu müqaviləni ADU-nun rektoru, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi Kamal Abdulla və Kiyev Milli Linqvistik Universitetinin rektoru, professor Roman Vasko imzalayıblar.

Sənəddə hər iki universitetin elmi potensialının inkişaf etdirilməsi, universitetlər arasında tələbə və müəllim, tədris və elmi-metodiki ədəbiyyatın mübadiləsi, müştərək elmi tədqiqatların aparılması, birgə elmi nəşrlərin hazırlanması, professor-müəllim heyətinin ixtisasartırması istiqamətində konkret layihələrin həyata keçirilməsi nəzərdə tutulur. İmzalanma mərasimində Kiyev Milli Linqvistik Universitetinin rektoru 2018-ci ilin aprel-may aylarında ADU-nun Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Yeni Azərbaycan Partiyası ilə birgə keçirməyi planlaşdırdığı, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş “Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası” adlı I Beynəlxalq elmi konfransda iştirak məsələsi haqqında da danışıb. Professor R.Vasko bildirib ki, rəhbərlik etdiyi universitet də həmin tədbirdə məmnuniyyətlə iştirak edəcək. Konfransın 10-a qədər ölkədə keçiriləcək bölmə iclaslarından biri də Kiyev Milli Linqvistik Universitetində təşkil olunacaq.

# “Sarkisyanın dövrü, onsuz da bitib”

*Azər Həsrət: “Sarkisyan prezident olduğu dövrdəki əməllərinə görə məhkəməyə də çəkilə bilər”*



Ermənistan hərbi xuntasının apardığı yarıtmaz siyasət nəticəsində, ölkə tam şəkildə müstəqilliyini itirmək dilleması ilə üz-üzə qalıb. Sosial-iqtisadi böhran və bununla paralel olaraq, siyasi tənəzzül cəmiyyətin bir neçə yerə parçalanmasına gətirib çıxarıb. Bu baxımdan demək olar ki, işğalçı ölkədə keçirilməsi planlaşdırılan seçkilər Ermənistanda qanlı olaylarla yekunlaşa bilər. Politoloq Qabil Hüseynlinin proqnozlarına görə, aprel ayında keçiriləcək seçkilər də Karapetyanın qələbəsilə başa çatacaq. Çünki Kreml, məhz Sarkisyanı deyil, Karapetyanı müdafiə edir: “Doğrudan da, Ermənistanda prezident Sarkisyanla baş nazir Karapetyan arasında savaş günü-gündən daha da dərinləşir. Bu mübarizədə də qalib tərəf, ehtimallara görə, Karapetyan olacaq. Çünki Moskva onun arxasındadır. Buna şübhəm yoxdur. Sarkisyan dövrü artıq başa çatmaq üzrədir. Onu da düşünürəm ki, Dağlıq Qarabağ məsələsinə münasibətdə Karapetyan Sarkisyanla müqayisədə daha radikal olacaq”.

Siyasi şərhçi Azər Həsrət isə “Səs” qəzetinə açıqlamasında bildirdi ki, işğalçı Ermənistanın hazırkı prezidenti yaxşı anlayır ki, hakimiyyətdən tam olaraq uzaqlaşsa, başı ağrıya bilər: “Çünki belə olacağı təqdirdə, onun bütün bəd əməlləri müzakirə predmeti olacaq və ölkəsinin bədbəxt insanlarına yaşatdığı acılar sorğulanacaq. Bu isə, o deməkdir ki, Sarkisyan prezident olduğu dövrdəki əməllərinə görə məhkəməyə də çəkilə bilər. Ona görə toxunulmazlığını uzun müddətə təmin etmək üçün, heç olmasa, baş nazir kimi dövlət idarəetməsində qalmağa çalışır. Ölkədə konstitusiyaya edilən dəyişikliklər, faktiki olaraq, baş nazirə daha üstün səlahiyyətlərin verilməsi də bununla bağlıdır. Proqnozlara görə, Sarkisyan Ermənistan prezidenti vəzifəsini başa vurandan sonra baş nazir vəzifəsini özü üçün gözaltı edib”.

“Erməni cəmiyyətinin Ermənistan prezidenti ilə açıq savaşa girməsi artıq Sarkisyan dövrünün bitdiyinin göstəricisidirmi” sualına cavab olaraq, A.Həsrət bildirdi ki, Sarkisyanın dövrü, onsuz da bitib: “Amma ağlı başında olan ermənilər də anlayırlar ki, bu adam hansısa formada hakimiyyətdə ən səlahiyyətli şəxslərdən biri kimi qalmaq istəyir. Bu isə, həqiqətən, bərbad gündə olan Ermənistana yaxşı heç nə vəd etmir. Yəni o, prezident olaraq, ölkəni normal bir müstəviyə çıxara bilmədisə, baş nazir olaraq da bunu heç vaxt bacarmayacaq. Məhz bu səbəbdən, erməni diasporunun ağlı başında olan kəsimi ölkənin xilası üçün açıq savaş elan edib. Amma nəticə nə olacaq? Nəticə o olacaq ki, Sarkisyan planını gerçəkləşdirə biləcək. Çünki onun kimi sözəbaxan bir adamın hakimiyyətdə qalması həm də ağalarına - Rusiyaya lazımdır”.

**GÜLYANƏ**

# Azərbaycan gəncliyi xoşbəxt və firavan gələcəyə doğru addımlamaqdadır

*YAP Masallı rayon təşkilatında 2 Fevral Gənclər Gününə həsr olunmuş tədbir keçirilib*



Dünən YAP Masallı rayon təşkilatında 2 Fevral Gənclər Gününə həsr olunmuş tədbir keçirilib. Tədbiri giriş sözü ilə YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq bildirmişdir ki, Azərbaycan gəncliyi ölkənin daxili ictimai-siyasi, həmçinin, sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və kreativliyi ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir: “Azərbaycan gəncliyi ölkəmizi beynəlxalq aləmdə də layiqincə təmsil edir, dövlətimiz haqqında həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında, mədəni-mənəvi irsimizin təbliğ olunmasında fəallıq nümayiş etdirir. Məhz bütün bunlar gəncliyimiz üçün dövlətimiz tərəfindən yaradılmış əlverişli imkanlar, verilmiş mükəmməl təhsil və özünü təsdiqləmək üçün ideal məkan əsasında ərsəyə gəlib. Müasir Azərbaycan gəncliyi unutmur ki, onlar müstəqil dövlətin azad gəncləri olaraq, bugünkü uğurlara, məhz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kurs nəticəsində sahib olublar”.

Tədbirdə YAP Masallı rayon təşkilatı gənclər birliyinin sədr müavini Tofiq Əsgərov çıxış edərək, bildirmişdir ki, hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir. Həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və sonra fəaliyyətə başlayıb, onu davam etdirərkən özü haqqında, ailəsi haqqında düşünməli, ancaq hər şeydən əvvəl və hər şeydən çox, müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünməlidir. Bu sözləri dünya və Azərbaycan tarixinə dahi şəxsiyyət kimi daxil olmuş müdrik dövlət xadimi və uzaqgörən siyasətçi Ümummilli Lider Heydər Əliyev öz nitqlərinin birində söyləmişdir. Bu fikirlər gənc nəslin dövlətimizin həyatında oynadığı mühüm rolu ön plana çəkərək, Azərbaycan gənclərinə diqqətlə qayğı göstərilməsini dövlət və hökumət qarşısında əsas vəzifə olaraq qoymuşdur.

Tədbirdə çıxış edən gənc YAP üzvlərindən Rəmzi Şahverdiyev, Flora İbadova, Günay Mehrəliyeva və başqaları çıxış edərək, qeyd etmişlər ki, aparılan düzgün, məqsədyönlü siyasət nəticəsində bu gün Azərbaycan gəncliyinin önündə böyük qapılar və yollar açılıb: “Gəncliyə göstərilən dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir və bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə, Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir. Dövlətimizin bütün sahələrdə həyata keçirdiyi uğurlu və məqsədyönlü siyasət nəticəsində, Azərbaycan gəncliyi xoşbəxt və firavan gələcəyə doğru addımlamaqdadır”.

Tədbirin sonunda bir qrup gənc partiya sıralarına qəbul olmaq üçün ərizə ilə müraciət etmişlər və bu gənclərə partiyanın üzvlük vəsiqələri təqdim olunmuşdur. Partiya həyatında fəal iştirakına görə bir qrup gəncə qiymətli hədiyyələr və fəxri fərmanlar təqdim edilmişdir.

**RÖVŞƏN**

# “700 min ağac əkək”

*YAP Qobustan rayon təşkilatı ağacəkmə kampaniyasını davam etdirir*



Dünən Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatı Qobustan Meşə Mühafizəsi və Bərpası Müəssisəsi ilə birlikdə partiyanın yaranmasının 25 illik yubileyi münasibətilə “700 min ağac əkək” kampaniyası çərçivəsində Təklə kənd ərazisində 0,5 ha sahədə 1150 badam tingi, küknar tingləri və şam ağacları əkilmişdir. Bu kampaniyada təbiətin və ekoloji mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması istiqamətində çoxsaylı tədbirlər və layihələr həyata keçirilir. Dövlət başçısı İlham Əliyevin diqqət ayırdığı sahələrdən biri kimi yaşıllıq sahələrinin genişləndirilməsi işi Qobustan rayonunda da uğurla həyata keçirilir.





Ağacəkmə kampaniyasında YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gulaliyev, təşkilatın əməkdaşları Təklə kənd ərazi ilk partiya təşkilatının üzvləri, Yeni Azərbaycan Partiyasının fəalları və gənclər iştirak edirdi.

Qeyd edək ki, Qobustan rayonunda “700 min ağac əkək” kampaniyası, üzrə tədbirlər planına uyğun olaraq, davam etdiriləcək.

**ZÜMRÜD**

# BP və tərəfdaşları ötən il Azərbaycandakı sosial layihələrə 2,4 milyon dollar xərcləyib

BP və tərəfdaşları 2017-ci ildə Azərbaycandakı sosial investisiya layihələrinə təqribən 2,4 milyon dollar vəsait xərcləyib. AZƏRTAC xəbər verir ki, bu barədə “BP Azerbaijan” şirkətinin əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib.

# Azərbaycanın 6 ölkə ilə enerji sahəsində anlaşma memorandumu imzalaması planlaşdırılır

Azərbaycanın 6 ölkə ilə enerji, neft-qaz və elektroenergetika sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu imzalaması nəzərdə tutulur. AZƏRTAC xəbər verir ki, bu barədə Energetika Nazirliyinin 2017-ci il üzrə “Yanacaq-energetika kompleksində fəaliyyətə dair” hesabatında deyilir.

Bildirilir ki, “Azərbaycan Respublikası Energetika Nazirliyi ilə İndoneziya Respublikası Energetika və Mineral Ehtiyatlar Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” layihəsi hazırlanıb. Adıçəkilən sənəd layihəsinə hazırda İndoneziya tərəfində baxılmaqdadır.

# Müxalifət partiyalarındakı istefaların hər biri eyni mövqeni əks etdirir

## Gedənlər Azərbaycan cəmiyyətinin maraqlarının partiya maraqlarından daha üstün və faydalı olduğunu bəyan edirlər

***Kifayət qədər bəllidir ki, özlərini "ana müxaifət" kimi zorla ictimai rəyə sırımağa cəhd göstərən AXCP və Müsavat partiyaları tutduqları radikallıq, dağıdıcılıq, xəyanətkar mövqelərindən geri çəkilmədikcə zaman-zaman öz tərəfdarlarını da itirirlər. Məsələn, buna misal kimi, Müsavatın bir neçə il öncə keçirdiyi saxta qurultayının ardınca baş verən istefaları göstərmək mümkündür. Məhz həmin ərəfələrdə canlarını partiyaya xidmətdə qoyan bir çox tanınmış müsavatçılar, özü də təşkilatda vəzifə tutan şəxslər kütləvi şəkildə istefa verdilər.***

Sabiq başqanın müşaviri Yeganə Hacıyevanın və s. müsavatçı səlahiyyətlilərin bəyanatları da, məhz bunu ehtiva edirdi. Misal üçün, Y.Hacıyeva bəyanatında siyasi hadisələri analiz etdiyini və bir məqamda obyektivliyi partiya maraqları naminə görməmək seçimi ilə üz-üzə qaldığını bildirmişdi. O, partiya rəhbərliyini öz maraqları naminə ölkənin və xalqın maraqlarını tapdaladıqlarını iddia etmişdi. Sözügedən qalmaqallı bəyanatı bir daha xatırlayaq: "Azərbaycan cəmiyyətinin maraqları partiya maraqlarından daha üstün və faydalıdır".

### İsa Qəmbərin sabiq müşaviri Yeganə Hacıyeva: "Müsavat partiyası ölkədə baş verən proseslərə obyektiv deyil, müəyyən maraqlar nöqteyi-nəzərindən yanaşır"

Maraqlısı da budur ki, baş verən ardıcıl istefalardan sonra da partiya rəhbərliyinə qarşı ittihamlar səngimir. Y.Hacıyeva növbəti dəfə bildirib ki, Müsavat partiyası ölkədə baş verən proseslərə obyektiv deyil, müəyyən maraqlar nöqteyi-nəzərindən yanaşır. Bu səbəbdən də, partiyada təmsil olunan şəxslər ədalətli yanaşma hissindən kənarda qalmalı olurlar. Onu da qeyd edək ki, istər Müsavatdan, istərsə də AXCP-dən olan istefalara müxalifətin digər cinahında olan partiyalar da münasibət bildirərək, istefa vernlərin tamamilə haqlı mövqedə olduqlarını deyirlər.

### Ədalət partiyası rəsmisi: "AXCP və Müsavatın apardığı siyasət ona gətirib çıxarır ki, insanlar əziyyət çəkirlər"

Məsələn, Ədalət partiyasının sədr müavini Mütəllim Rəhimli hesab edir ki, insanların bəyanat verərək, AXCP və Müsavat kimi partiyalardan istefa vermələri normal haldır. Çünki onlar illər boyu apardıqları mübarizənin yanlış istiqamətdə həyata keçirildiyini anlayırlar və daha çox əziyyət çəkməmək üçün partiya sıralarını tərk edirlər.

SİTAT: "İnsanlar uzun müddətdir ki, bu iki partiyanın arxasınca gedirlər və onlar da sanki müxalif düşərgəni inhisara alıblar. Hesab edirlər ki, yalnız bu iki partiya müxalifətdir, müxalif düşərgədə başqa partiya yoxdur. Bunların apardığı siyasət, ona gətirib çıxarır ki, insanlar əziyyət çəkirlər, amma bu düşərgənin apardığı mübarizədə, bir addım da olsa, irəliləyiş yoxdur. Ona görə də, insanlar bezirlər, perspektiv görmədikləri, gələcəklərini görmədikləri yerdən uzaqlaşırlar", - o, əlavə edib.

Ədalət rəsmisi, həmçinin, qeyd edir ki, 90-cı illərdə aparılan mübarizə ilə bugünkü mübarizə tamamilə fərqlənməlidir. Daha dəqiq desək, bu gün müxalifətin küçə müxalifəti sindromundan çıxması lazımdır, ancaq dağıdıcılar bununla bacara bilmirlər. Toplantılarını çayxana və kafelərdə keçirən radikallar bu vasitə ilə öz ətraflarını daha da itirir, bununla da, siyasi ölümlərinə özləri tərəfindən imza atmış olurlar.

**R.NURƏDDİNOĞLU**

# Dəhliz ermənilərin üzünə, birmənalı olaraq, bağlandı

***Gürcüstanın iqtisadiyyat nazirinin müavini Georgi Çikovani Gürcüstanın Rusiya qazının alınmasından birdəfəlik imtina etdiyini bildirib. Nazir yanacağın bu növünə ölkəsinin tələbatını, bütünlüklə, Azərbaycanın ödədiyini diqqətə çatdıraraq, Rusiya qazının onlara daha lazım olmadığını vurğulayıb. Ekspertlər Gürcüstanın tamamilə Azərbaycan qazına keçməsini Cənub Qaz Dəhlizi boru kəməri sistemi layihəsi ilə əlaqələndirirlər. Layihə çərçivəsində "Şahdəniz -2" qazı Azərbaycandan Türkiyəyə, oradan isə Avropa İttifaqı ölkələrinə nəql ediləcək. Kəmərin bir hissəsi kimi TANAP bu il işə düşməlidir.***



Məsələ burasındadır ki, bu imtina ilə Qərb qonşumuzun illərdir Abxaziya və Cənubi Osetiyanın işğalına görə gərgin münasibətlərdə olduğu Rusiyadan enerji asılılığı sıfıra düşəcək. Azərbaycan qazının alınması ilə asılılığın aradan qaldırması Gürcüstan üçün əvəzolunmazdır. Eyni zamanda, nəzərə alsaq ki, iki ölkə arasında bağlara növbəti birisi əlavə olunacaq, deməli, Azərbaycanın Gürcüstan üçün dəyəri bir az da artacaq. Bu isə, öz növbəsində, o deməkdir ki, Gürcüstan bizim maraqlarımıza daha həssas yanaşacaq və Azərbaycanın mövqeyini qorumaqda daha maraqlı olacaq.

### Ermənistan Rusiyanın forpostu olmağın bədəlini ödəyir

Digər tərəfdən, məlumdur ki, Ermənistan Abxaziyadan xilas dəhlizinin açılmasında çox maraqlıdır və bu dəhlizin açılmasına böyük ümidlər bəsləyirdi. İşğalçı dövlət üçün bu dəhliz təkcə quru yolu, dəmir yolu yox, sözün əsl mənasında, xilas yolu hesab olunur. Müttəfiqi Rusiya ilə quru (dəmiryolu) əlaqəsi, yəni Abxaziya dəhlizi Ermənistan üçün hərtərəfli imkanlar deməkdir və Qarabağ münaqişəsi ilə əlaqədar aktiv əməliyyatlara start verildiyi təqdirdə, işğalçılar bu dəhliz vasitəsilə hərbi texnika və sursatla yanaşı, digər yardımların da öz müttəfiqindən asanlıqla əldə etmək imkanı qazana bilərdilər. Amma hadisələr, onu deməyə əsas verir ki, işğalçıların işğal altında olan Abxaziya və Cənubi Osetiyadan yeni nəqliyyat dəhlizləri açmaq niyyəti, öz müttəfiqi Rusiya ilə quru (dəmiryolu) əlaqəsi əlçatmaz olaraq qalacaq. Məhz blokada vəziyyətindən çıxış yolu axtaran Sarkisyan rejimi üçün bu uğursuzluq işğalçıları yetərincə sarsıdıb və blokadadan çıxış yolu arayan separatçılar üçün, son ümid hesab olunan dəhlizin itirilməsi, ciddi narahatçılıq doğurub və Ermənistan hökumətinin bu narahatçılığı başadüşüləndir. Bu ölkəyə yüklərin böyük hissəsinin, yəni 80 faizinin Rusiyadan gəldiyini nəzərə alsaq, Ermənistan Abxaziyadan və Cənubi Osetiyadan yolların açılmasında çox maraqlıdır. Ermənilər özləri də bu marşurutun onlar üçün iqtisadi cəhətdən çox əlverişli olduğunu etraf edirlər.

Məsələ burasıdır ki, bu yolun ermənilər üçün iqtisadi baxımdan sərfəli olmasından başqa, həm də hərbi nöqteyi-nəzərdən də böyük önəmi var. Həmçinin, bu dəhliz, hərbi qüvvənin rahat keçə bilməsi səbəbindən, Azərbaycan üçün təhlükəlidir. Bu dəhliz vasitəsilə Rusiya hərbi texnikanı humanitar yük adı altında maskalayaraq, Ermənistana göndərə, işğalçılara istənilən vaxt hərbi yardım göstərə də bilər. Bu, nöqteyi-nəzərdən, həmin yolun bağlı qalması potensial Qarabağ müharibəsi baxımından, çox vacibdir. Belə ki, istənilən vaxt Dağlıq Qarabağın işğaldan azad edilməsi istiqamətində hərbi əməliyyatlara başlanılarsa, Ermənistanın yolsuzluq səbəbindən, Rusiyadan hərbi texnika, yardım almaq imkanları məhdudlaşa və blokada şəraitində olan işğalçılar Azərbaycanın hərbi gücü qarşısında ən tez zamanda sarsıla bilər.

### Azərbaycanın mövqeyinə Gürcüstan hökuməti çox həssas yanaşır və daim müdafiə edir

Təbii ki, Gürcüstanın öz enerji təhlükəsizliyində Azərbaycanın rolu danılmazdır və qarşı tərəfin də Azərbaycanın maraqlarına cavab verən strategiyası adekvat olmalıdır. Yeni Ermənistanın izolyasiya rejimini yumşaltmasına hər hansı formada imkan verməк, bu yöndə təcavüzkara istənilən yaxşılıq, güzəşt Azərbaycanın maraqlarına ziddir və işğalçının özünü bundan sonra daha da rahat hiss eləməsinə yardımçı olmaqdır. Belə bir addımı isə, Azərbaycan, xüsusən də, öz dost-müttəfiqlərindən gözləmir.

Hadisələrin gedişi ondan xəbər verir ki, Azərbaycanın gözləmədiyi bu addımı atmaqda Gürcüstan tərəfi də maraqlı deyil və məhz ölkəmizin maraqlarına hörmətlə yanaşır. Ələlxüsus, Dağlıq Qarabağ kimi konfliktin fonunda Azərbaycanın mövqeyinə Gürcüstan hökuməti çox həssas yanaşır və daim müdafiə edir. Gürcüstanın Rusiya qazının alınmasından birdəfəlik imtina etməsi, yanacağın bu növünə tələbatın, bütünlüklə, Azərbaycan tərəfindən təmin olunması Gürcüstan hökumətinin mövqeyini daha da möhkəmləndirmiş və Abxaziya dəhlizi ermənilərin üzünə, birmənalı olaraq bağlanıb. Onsuz da, diplomatik münasibətlərə hörmətlə yanaşan Gürcüstan belə bir dəhlizi ermənilərə bağışlamaq və Azərbaycanın maraqlarına hörmətsizlik etmək fikrində deyildi. Amma Gürcüstan qazının, məhz Rusiya deyil, Azərbaycan tərəfindən təmin olunması, həm Gürcüstanı Rusiya asılılığından azad etdi, həm də Azərbaycanla iqtisadi əlaqələr diplomatik münasibətlərin inkişafına daha böyük zəmin yaratmış oldu. Cənub Qaz Dəhlizi boru kəməri sistemi layihəsi ilə Gürcüstanın tamamilə Azərbaycan qazına keçməsi hər iki qonşu dövlət üçün səmərəlidir və ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafına öz töhfələrini verməkdədir.

Öz siyasi, iqtisadi, mədəni əlaqələri, qlobal müstəvidə uğurlara imza atması, regional layihələrin təşkilatçısı olması, dünya dövlətləri arasında söz sahibinə çevrilməsi, dövlətimizin və dövlət başçısı, Prezident İlham Əliyevin uğurlu siyasəti sayəsində, Azərbaycan müstəqilliyini daha da möhkəmləndirir və regionda təhlükəsizliyin təmin olunmasına öz töhfələrini verir. Baş verənlər, həm də erməni diplomatiyası, bir sözlə, işğalçılar üzərində ölkəmizin növbəti qələbəsinin göstəricisidir.

**İnam HACIYEV**

TƏRS BAXIŞ

# AXCP-çilərin "REAL"-çılara hücumları daha da artdı

## Aranı isə Emin Hüseynov qatıb

***Son günlər AXCP ilə "REAL" hərəkatı arasında kəskin qarşıdurmalar müşahidə olunmaqdadır. Səbəb isə, bir müddət öncə, hər iki siyasi qurumun "liderləri" - Əli Kərimli və İlqar Məmmədovun sosial şəbəkədə sorğu vasitəsi ilə hansının daha çox səs çoxluğu toplamaları ilə bağlıdır. Daha dəqiq desək, virtual sorğu keçirilsə də, həmin sorğuda həbsdə olan "REAL" sədri İ.Məmmədov Ə.Kərimlini xeyli üstələmişdi. Məhz bundan sonra cəbhəçilər saxta profilləri ilə "REAL" üzvlərini hədəfə götürərək, onları söyüş və təhqir obyektinə çevirmişdilər.***

### Əli Kərimli səsvermənin yarımfinalında həbsdə olan "REAL" sədri İlqar Məmmədova növbəti dəfə 54-46% nisbətində uduzub!

Çox keçməmiş, bu savaş daha da qızışmağa başladı. Belə ki, bu dəfə "odun üzərinə benzin tökən" İsveçrədə mühacir həyatı yaşayan dırnaqarası "hüquq müdafiəçisi", "RATİ"-nin sədri Emin Hüseynov oldu. Yeri gəlmişkən, onu da, qeyd etmək yerinə düşərdi ki, sorğuda yalnız Ə.Kərimli və İ.Məmmədov deyil, digər müxalifət partiyalarının sədrlərinin də adları hallanıb. Ancaq sona, məhz bu iki şəxs qalıb. Beləliklə, uduzan tərəf əks-tərəfi, eləcə də, sorğunun təşkilatçısını sərt şəkildə tənqid edərək, ona qarşı ən aşağılayıcı ifadələr səsləndirib. Çünki Ə.Kərimli səsvermənin yarımfinalında həbsdə olan "REAL" sədri İ.Məmmədova 54-46% nisbətində uduzub. Hətta cəbhəçilərin bu ittihamlarının əsasını İ.Məmmədovun qələbəsində guya hakimiyyətin əlinin olması (?-R.R.) barədə iddialar təşkil edir.

### Natiq Cəfərli: "AXCP-nin bunu bu qədər ciddiyə almasını bu günə qədər də anlaya bilmirəm"

Bu arada "REAL"-ın icraçı katibi Natiq Cəfərli mətbuata açıqlamasında bildirib ki, sosial şəbəkələrdə keçirilən sorğuların bu qədər ciddiyə alınması doğru deyil və bununla yanaşı, üstəlik, "REAL"-ın AXCP üzərindəki qələbəsinə haqq qazandıraraq, səsverməyə gec başladıqlarını da deyib. Əlbəttə, bu cür fikir Ə.Kərimlini və tərəfdarlarını daha da qıcıqlandırıb və onların qarşı tərəfə aqressiv münasibət bildirmələrinə səbəb olub. SİTAT: "AXCP-nin bunu bu qədər ciddiyə almasını bu günə qədər də anlaya bilmirəm. Sosial şəbəkələrdə aparılan sorğular rəy öyrənmək üçün maraqlıdır...Biz sorğunun keçirildiyindən gec xəbər tutduq və reaksiyamız gec oldu. Bizim "REAL"-a aid səhifədə 3-4 min nəfərlik müzakirə qrupu var. 30 minlik rəsmi səhifəmizdə bu sorğu paylaşıldı".

N.Cəfərli axecepeçilərin realçıları hakimiyyətə işləməkdə, hətta səs verməkdə, guya hakimiyyətdən dəstək almalarına da cavab verərək, bütün bunların yalan olduğunu deyib. "Bu, çox absurd bir iddiadır"-deyə qeyd edən N.Cəfərli bildirib ki, bu günə qədər AXCP ilə müxtəlif mövzularda çoxsaylı müzakirələri olub, əvvəlki və sonuncu "arqumentləri" eyni olub. "Açığı, qarşı tərəfin belə iddialarını gülüşlə qarşılayıram" - "REAL"-ın icraçı katibi istehza edib.

### Cəfərli Eldəniz Quliyevin mitinq çağırışlarını "uğursuz" adlandırdı

N.Cəfərli onlara qarşı ittihamlarda yer alan və davamlı mitinq çağırışları edən AXCP və "Milli Şura" təmsilçilərini kəskin tənqid edib. Xüsusilə, Eldəniz Quliyevin çağırışlarına qarşı deyib ki, Azərbaycanda siyasi fəaliyyətin hədəfi uzun zamandır mitinq kimi təqdim olunur: "Bunu da insanlara sübut etmək cəhdləri var. Bu tamamilə yersiz yanaşmadır. Mitinq hədəf ola bilməz...Bu günə qədər hansı mitinqlər Azərbaycanda hədəfinə çatıb? "Milli Şura" keçirdiyi mitinqlərlə hədəfinə çatıbmı?..İnsanlarda belə mitinqlərə maraq da yoxdur. "REAL"-ı belə şeylə ittiham etmək düzgün deyil".

**Rövşən RƏSULOV**

*P.S. Maraqlıdır, "RATİ"-nin sədri Emin Hüseynov aranı qatdıqdan sonra hara qaçıb?*

# Müxalif düşərgə avaralar yığnağına çevrilir

## Rəsul Quliyev ABŞ polisi tərəfindən miqrasiya tələblərini pozduğu üçün 1200 dollar cərimələnib



Bu gün dağıdıcı müxalifətin apardığı yanlış və anormal siyasət bu ünsürlərə qarşı ictimai rəydə patoloji nifrət obyekti yaradıb. Kimi dindirsən, kiminlə söhbət etsən və müxalifətlə bağlı suallar versən, birmənalı tərzdə dağıdıcı düşərgə təmsilçilərinə qarşı ittihamlar eşidəcəyik. Bu da, onu deməyə əsas verir ki, müxalifət cəmiyyətdə özü haqqında, elə bir rəy formalaşdırıb ki, bu rəyin dəyişdirilməsi uzun illər üçün qeyri-mümkün vasitəyə çevrilir. Fikirlərin və mövqelərin redaktə olunması üçün Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Rəsul Quliyev və digər bu kimi müxalif məxluqların, nəinki sədrlikdən, ümumiyyətlə, siyasətdən getmələrinə zərurət var. Bununla paralel olaraq, həmin ünsürlərin sədrliyi dönəmində partiyaların kollegial orqanlarında təmsil olunmuş şəxslərin də siyasətdən getmələri vacibdir. Çünki isaların və kərimlilərin o partiyalarda səpdikləri toxum yalnız şər-böhtan, qərəz və məkrli planlar cücərdə bilər.

### Rəsul Quliyev Nyu-Yorkdan qovulur

Müxalifət düşərgəsinin yarıtmaz məxluqlarından olan "Gələcək Azərbaycan" partiyasının lideri Rəsul Quliyev, belə bir iddia ilə çıxış edib ki, guya düşərgə daxilində çoxluq onun vahid namizədliyini dəstəkləyir. Onun Bakıdakı nümayəndəsi Ağasif Şakiroğlu da, belə bir açıqlama ilə çıxış edib ki, ümumi razılıq əldə olunarsa, R.Quliyev seçkilərdə müxalifətin namizədi kimi iştirak edə bilər. Məsələyə münasibət bildirən AXP sədri Pənah Hüseyn R.Quliyevin açıqlamasını sayıqlama adlandırıb. Onun sözlərinə görə, rahat və təhlükəsiz yerdə oturub, sərsəm fikirlər ifadə etmək yalnız R.Quliyev kimilərə xas xüsusiyyət sayıla bilər.

### Rəsul Quliyev ABŞ-ı Braziliya ilə dəyişir

Bu arada aldığımız məlumata görə, R.Quliyevin mühacir həyatı yaşadığı ABŞ-ın Nyu-York şəhərində vəziyyəti heç də ürəkaçan deyil. Daha doğrusu, ABŞ polisi ötən həftə onun miqrasiya qanunlarını pozduğu üçün 1200 ABŞ dolları məbləğində cərimələyib və qısa müddətdə ölkəni tərk etmək barədə xəbərdar edib. Artıq çıxılmaz vəziyyətdə qalan eks-spiker neft sənayesinə investisiya qoyduğu Braziliyaya üz tutmağı planlaşdırır. Orada bir müddət qaldıqdan sonra, Fransaya getmək və orada yaşamağı nəzərdə tutur. Söz yox ki, R.Quliyev ABŞ-ı tərk edib, Avropaya üz tutacağı təqdirdə, bir sıra siyasi dəstəkdən və biznes maraqlarının təmin olunmasından məhrum olunacaq. Çünki ABŞ-ın bir sıra qaranlıq dairələri ona siyasi dəstək verirdi. Nyu-York və Vaşinqton şəhərlərində özünə biznes quran R.Quliyev bununla müəyyən maliyyə imkanları əldə edirdi. ABŞ-dan çıxarılması ilə o, bu imkanlardan məhrum olunacaq. Beləliklə də, Bakıdakı nümayəndələri öz siyasi fəaliyyətlərini dayandırmağa məcbur olacaqlar. Çünki R.Quliyev tərəfindən pul gəlmədiyindən, Şakiroğlu kimilər də boşboğazlıq edib, populist açıqlamalarla çıxış edə bilməyəcəklər.

**İ.ƏLİYEV**

# "Onlara ancaq boşboğazlıq etmələri qalacaq"

***- Təhmasib bəy, bu il seçki ili olduğundan, AXCP sədri Əli Kərimli və Müsavatın keçmiş başqanı İsa Qəmbər, müxtəlif şoular yaratmaqla, diqqət mərkəzinə çevrilməyə çalışırlar. Sizcə, bununla cəmiyyətdə siyasi dividend qazanmaq olarmı?***

- İsa Qəmbər, Əli Kərimli və digərləri yaramaz hərəkətləri, anormal əməlləri ilə heç zaman cəmiyyətdə özlərinə siyasi dividend qazana bilməyəcəklər. Çünki ilk öncə, radikal müxalifətin xalq tərəfindən heç bir dəstəyi yoxdur. Digər tərəfdən, təmsil olunduqları partiyalarda belə, sıravi üzvlər tərəfindən qəbul edilmirlər. Belə olan halda, nə isə adi bir məsələdən öz maraqları üçün yararlanaraq, onda şou düzəldib, diqqət mərkəzində olmağa çalışmaq, heç vaxt onlara başucalığı gətirməyəcəkdir. Onlara ancaq boşboğazlıq etmələri qalacaq.

***- Sizcə, müxalifət qaranlıq xarici dairələrin sifarişi ilə təxribatlar və qarşıdurmalar törədə bilərmi? Ümumiyyətlə, onların buna gücləri çatarmı?***

- Birmənalı tərzdə, onu demək olar ki, İ.Qəmbəri və Ə.Kərimli bu il keçiriləcək prezident seçkilərində namizəd qismində çıxış etsələr də, uğursuzluğa düçar olacaqlar. Bunu onların özləri də dərk edirlər. Ona görə də, təxribatlar törətməyə cəhdlər göstərəcəklər. Amma hüquq - mühafizə orqanlarından öncə, ictimaiyyət onları ifşa edəcək. Beləliklə də, məkrli planları alt-üst olacaq. Ümumiyyətlə, bütövlükdə, müxalifətin bu seçkilərdə cüzi uğur qazanmaq şansları sıfıra bərabərdir. Sadəcə olaraq, müxalifət xaricdə olan havadarlarına ümid edir ki, bəlkə xarici havadarları onlara ayırdığı maliyyə yardımlarını artırsın. Amma xarici qüvvələr onlara qəpik-quruşdan artıq vəsait ayırmayacaq.



Müsahibimiz "Azadlıq Hərəkatçıları Birliyi"nin sədri Təhmasib Novruzovdur

***- Müxalifətdə hal-hazırda bir neçə "vahid namizəd" olmaq iddiasında olan partiya sədrləri var. Ə.Kərimli iddia edir ki, onların içərisində ən şanslısı odur. Bunu özünəvurğunluq, həm də təkəbbür kimi qiymətləndirmək olarmı?***

- Ə.Kərimlinin müxalifət partiya sədrləri içərisində özünü ən şanslı namizəd hesab etməsi, onu müdafiə edərək, maliyyələşdirən xarici qüvvələrə arxayın olmasından irəli gəlir. Deyəsən, xarici qüvvələr Ə.Kərimliyə reallığı özündə heç vaxt əks etdirməyən ümid veriblər. Ə.Kərimli də onların buna verdiyi ümidə arxayın olaraq, özünü şanslı hesab edir. Ancaq xarici qüvvələr ondan bir alət kimi istifadə edirlər. Xarici məkrli təşkilatların pozucu planları baş tutmayacağı təqdirdə, Ə.Kərimlidən imtina olunacaq.

**GÜLYANƏ**

# Mülkiyyət hüququna dair normativ aktlar

***Mülkiyyət hüququna dair əsas hüquqi baza Azərbaycan Respublikası Konstitusiyasıdır. Əsas Qanunumuzda yazılmışdır: “I. Hər kəsin mülkiyyət hüququ vardır. II. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən, xüsusi mülkiyyət hüququ qanunla qorunur. III. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər.***

Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. IV. Heç kəs məhkəmənin qərarı olmadan, mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər. V. Dövlət vərəsəlik hüququna təminat verir.”

Azərbaycan Respublikası Konstitusiyasında mülkiyyətin üç formasını - dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti formasını təsbit etmişdir. Bütün növlərdən olan daşınar və daşınmaz əmlaka mülkiyyət hüququnun subyektləri hüquqi və fiziki şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası ola bilər. Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə də istehsal fondları strukturunda dövlət mülkiyyəti əsas yer tutur. Dövlət əhalinin minimum yaşayışını təmin edir, aztəminatlı ailələrin həyat səviyyəsini qaldırır və əhalinin imkansız təbəqələrinin sosial müdafiəsi məsələlərini həll edir. Cəmiyyətin normal inkişafı yalnız müxtəlif mülkiyyət formalarının sağlam rəqabətilə mümkündür.Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 155.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasına mülkiyyət hüququ ilə mənsub olan əmlak dövlət mülkiyyətidir. Dövlət mülkiyyət hüququ dedikdə, dövlətin mənsub olduğu əmlak üzərində qanunla müəyyən edilmiş çərçivədə sahiblik, istifadə və sərəncam vermək hüququ başa düşülür. Başqa subyektiv hüquqlar kimi, dövlət mülkiyyət hüququ da müəyyən hüquq münasibəti çərçivəsində yaranır, bu və ya digər maddi dəyərlərin idarəçiliyi sahəsində konkret səlahiyyətləri xarakterizə edir. Dövlət mülkiyyətçisinin səlahiyyətləri həm mülki hüquqların vahid subyekti tərəfindən, həm də dövlət əmlakının bir hissəsinə malik olan dövlət hüquqi şəxsləri tərəfindən həyata keçirilir. Burada mülkiyyətçi ilə dövlət hüquqi şəxsləri arasında öhdəlik hüquq münasibətləri yaranmır. Dövlət idarəçilik orqanları tərəfindən normativ aktların qəbul edilməsi ilə mülkiyyət hüququ həyata keçirilir. Mülki Məcəllənin 155.2-ci maddəsində qeyd olunur ki, fiziki, hüquqi şəxslərin və ya bələdiyyələrin mülkiyyətində olmayan torpaq və digər təbii ehtiyatlar dövlət mülkiyyətidir. Bu obyektlərin geniş dairəsi “Azərbaycan Respublikasında mülkiyyət haqqında” 9 noyabr 1991-ci il tarixli Qanunda (23 aprel 2002-ci il tarixli, 311-IIQD nömrəli qanuna əsasən, qüvvədən düşmüşdür) göstərilmişdir. Həmin Qanunda deyilir ki, Azərbaycan Respublikasında mülkiyyət hüququ Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada və şərtlərlə yaranır.Mülkiyyətçi özünə məxsus əmlaka öz mülahizəsinə görə sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüququna malikdir.

Mülkiyyətçi əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam səlahiyyətlərini başqa şəxsə verə bilər, əmlakdan girov kimi və ya başqa üsulla istifadə edə bilər, öz əmlakını mülkiyyət kimi və ya idarə etmək üçün başqa şəxsə verə bilər, habelə, öz əmlakı barəsində qanuna zidd olmayan istənilən hərəkətləri etmək ixtiyarına malikdir. Mülkiyyətçi əmlakdan hər hansı sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş başqa fəaliyyət üçün istifadə edə bilər.

Əmlakdan təsərrüfat və digər məqsədlərlə istifadə edilməsinin nəticələri (məhsul və gəlir) - qanunda və ya müqavilədə başqa hal nəzərdə tutulmayıbsa - bu əmlakın mülkiyyətçisinə məxsusdur.

Mülkiyyətçinin ixtiyarı vardır ki, ona məxsus mülkiyyət hüququnu həyata keçirərkən, vətəndaşların əməyindən istifadə etmək haqqında onlarla Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş şərtlərlə və hədlərdə müqavilələr bağlasın.

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş hallarda, şərtlərlə və hədlərdə mülkiyyətçinin üzərinə onun əmlakından digər şəxslərin məhdud şəkildə istifadə etməsinə yol vermək vəzifəsi qoyula bilər. Mülkiyyət hüququnun həyata keçirilməsi ətraf mühitə zərər vurmamalı, vətəndaşların, müəssisələrin, idarələrin, təşkilatların və dövlətin hüquqlarını və qanunla qorunan mənafelərini pozmamalıdır.

Azərbaycan Respublikasında mülkiyyət münasibətləri Azərbaycan Respublikasının qanunları ilə və onlara müvafiq surətdə qəbul edilən normativ aktlarla, dövlətlərarası müqavilələrlə, habelə, Naxçıvan Muxtar Respublikasının qanunvericiliyi ilə, yerli Xalq Deputatları Sovetlərinin öz səlahiyyətləri daxilində qəbul etdikləri aktlarla tənzimlənir.

Tarix və mədəniyyət abidələri üzərində mülkiyyət hüququnun həyata keçirilməsi xüsusiyyətləri Azərbaycan Respublikasının xüsusi qanunvericiliyi ilə müəyyən edilir.

Elm, ədəbiyyat və incəsənət əsərləri yaratmaq, ixtiralar və kəşflər etmək, səmərələşdirmə təklifləri vermək, sənaye nümunələri, proqram vasitələri və digər intellektual mülkiyyət obyektləri hazırlamaq və bunlardan istifadə etmək sahəsində münasibətlər müəlliflik hüququ və mülki qanunvericiliyinin başqa aktları ilə, habelə, hökumətlərarası sazişlərlə tənzimləmir.

Torpaq, yerin təki, daxili sular və ərazi suları, qitə şelfi, hava hövzəsi, bitkilər və heyvanlar aləmi, müəssisələr, əmlak kompleksləri, binalar, qurğular, avadanlıq, xammal və materiallar, pullar, qiymətli kağızlar, istehsal təyinatlı, sosial, mədəni və başqa təyinatlı digər əmlak, intellektual və yaradıcı əməyin məhsulları mülkiyyətdə ola bilər.

Azərbaycan Respublikasında mülkiyyət dövlət mülkiyyəti, kollektiv mülkiyyət və xüsusi mülkiyyətdən ibarətdir. Azərbaycan Respublikasının və başqa dövlətlərin vətəndaşlarının və hüquqi şəxslərin mülkiyyətinin olan əmlakın birləşdirilməsinə, bunun əsasında mülkiyyətin qarışıq formasının yaradılmasına Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hədlərdə yol verilir. Qarışıq mülkiyyətin növü öz vəsaitini birləşdirən sahiblərin statusu ilə müəyyən edilir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hədlərdə onun ərazisində xarici dövlətlərin, onların hüquqi şəxslərinin və vətəndaşlarının, beynəlxalq təşkilatların mülkiyyətinə yol verilir.

Dövlət mülkiyyətin müxtəlif formalarının inkişafı üçün şərait yaradır və onların müdafiəsinin təmin edir. Mülkiyyət hüququnun həyata keçirilməsində, mülkiyyət formasından asılı olaraq, məhdudiyyətlərə və ya üstünlüklərə yol verilmir.

Qanunda müəyyən edilmiş hallarda və hədlərdə mülkiyyətçi əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüquqlarını başqa şəxslərə verə bilər, bu şəxslər həmin hüquqları qanunun və ya mülkiyyətçinin nəzərdə tutduğu hədlərdə həyata keçirirlər.

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunvericilik aktlarında başqa hal nəzərdə tutulmayıbsa, mülkiyyətçinin əmlakından göstərilən şərtlərlə təsərrüfat və ya başqa məqsədlərlə istifadə edən şəxslərin hüquq və mənafelərinin müdafiəsi üçün onlara da mülkiyyətçi ilə eyni təminatlar verilir.

Mülkiyyətçi ona məxsus olan əmlakı yaratdığı müəssisəyə tam təsərrüfatçılıq səlahiyyəti ilə təhkim edə bilər.

Müəssisə ona təhkim edilmiş əmlak üzərində tam təsərrüfatçılıq səlahiyyətini həyata keçirərək, göstərilən əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüququna malikdir, həmin əmlak üzərində qanuna zidd olmayan istənilən hərəkətləri edə bilər. Əgər qanunvericilik aktlarında, yaxud müəssisə ilə mülkiyyətçi arasında bağlanmış müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, mülkiyyət hüququ normaları tam təsərrüfatçılıq səlahiyyətinə də tətbiq olunur.

Mülkiyyətçi və ya onun öz əmlakını idarə etmək üçün vəkil etdiyi şəxslər müəssisə yaratmaq, onun fəaliyyət məqsədlərini müəyyənləşdirmək, onu yenidən təşkil etmək və ləğv etmək məsələlərini qanuna və təsis sənədlərinə müvafiq surətdə həll edir, etibar olunmuş əmlakın səmərəli işlədilməsinə və salamatlığına nəzarət edirlər.

Mülkiyyətçi ilə müəssisə arasında bağlanmış müqaviləyə əsasən, mülkiyyətçinin müəssisəyə verdiyi əmlakdan istifadə olunmasından götürülən mənfəətin bir hissəsini müəyyən edilmiş məbləğdə almağa ixtiyarı vardır. Bu payın müəyyənləşdirilməsi zamanı yaranan mübahisələr məhkəmə, arbitraj məhkəməsi və ya münsiflər məhkəməsi tərəfindən həll edilir.

3.Mülkiyyətçinin vəsaiti ilə maliyyələşdirilən dövlət müəssisəsinə və başqa müəssisəyə onun təhkim etdiyi əmlak həmin müəssisənin operativ idarəsində olur. Bu müəssisə əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüquqlarını qanunla müəyyənləşdirilmiş hədlərdə və qaydada, öz fəaliyyət məqsədlərinə, mülkiyyətçinin tapşırıqlarına və əmlakın təyinatına müvafiq surətdə həyata keçirir.

Azərbaycan Respublikasının başqa ölkələrdəki dövlət, kooperativ əmlakına, onun ictimai birliklərinin və dini təşkilatlarının, habelə, vətəndaşlarının əmlakına sahiblik, ondan istifadə və onun barəsində sərəncam şərtləri və qaydası mülkiyyətin olduğu dövlətlərin qanunları ilə, habelə, bağlanmış sazişlərlə və beynəlxalq hüquq normaları ilə müəyyən edilir.

Mülkiyyət hüququnun normativ aktlarından biri də “Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu”dur Bu Qanun Azərbaycan Respublikasında sahibkarlığın prinsiplərini, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarını və vəzifələrini, onun dövlət tərəfindən müdafiə və təqdir olunmasının forma və üsullarını, sahibkarların dövlət orqanları ilə qarşılıqlı münasibətlərini müəyyənləşdirir. Qanun mülkiyyətin bütün formalarının bərabərliyi prinsipinin həyata keçirilməsi, müstəqil olaraq fəaliyyət sahələri seçilməsi və iqtisadi qərarlar qəbul edilməsi əsasında iqtisadi təşəbbüsün və işgüzarlığın geniş təzahür etməsi üçün şərait yaradılmasına yönəldilmişdir. Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə, öz riski ilə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətdir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 1 fevral




## Qanazlığından əziyyət çəkənlər mütləq oxusunlar!

Tərkibində mineral duzlar, vitaminlər, üzvi turşular və zülalları parçalayan maddələr olan çuğundur insan orqanizmi üçün çox faydalıdır. Çuğundurun özünü yeyə bilməyənlər şirəsini içə bilərlər. Ürəkbulanmanın baş verməməsi üçün çuğundur şirəsini çəkəndən sonra bir az soyuducuda saxlayıb sonra içmək lazımdır. Çuğundurun faydalarını saymaqla bitməz. Bu tərəvəz həzmi yaxşılaşdırır, mikrobları öldürür, ürəyin işini tənzimləyir, trombların yaranmasının qarşısını alır. Tərkibindəki maqnium sayəsində təzyiqin aşağı salınmasına kömək edir.

Qalxanabənzər vəzin xəstəliklərində faydalıdır. Tərkibi yodla zəngin olduğu üçün zobdan əziyyət çəkənlər üçün əvəzolunmaz dərmandır. Qırmızı çuğundurun tərkibi antioksidantlarla zəngindir, qırmızı çuğundura rəngini verən piqmentlər xərçəngə qarşı mübarizədə təsirlidir.

A, B, C və P vitaminləri ilə zəngin olan bu tərəvəz qanazlığının dərmanıdır. Qanazlığından əziyyət çəkənlər bu tərəvəzi gündəlik menyularına daxil etməlidirlər. Salatlarda istifadə etmək çox yararlıdır. Bəzi ölkələrdə onu "qan meyvəsi" adlandırırlar. Bu da səbəbsiz deyil. Kök suyu ilə qarışdırılan qırmızı çuğundur suyu içildiyində qırmızı qan hüceyrələrinin sayını qısa zamanda çoxaldır. Çuğundur eyni zamanda fosfor, dəmir, mis, maqnezium, kalsium, brom, sink və manqanla zəngin olub, immun sistemini gücləndirir. Xüsusilə, soyuq qış aylarında qırmızı çuğundurla qidalanmaq orqanizmin müqavimətini artırır. Çuğundur suyu təzyiqə qarşı da təsirlidir. Bir stəkan çuğundur suyu içmək təzyiqi aşağı salır. Müntəzəm olaraq bu tərəvəzdən istifadə edən insanların təzyiqi nizamlanır.

## Doğuş prosesinə daha çox müsbət təsir göstərən vitamin



Vitaminlər insan orqanizmi üçün çox əhəmiyyətlidir. Lakin həkimlər hamilə xanımlara daha çox B vitamini qəbul etməyi məsləhət görürlər. Çünki B vitamini körpənin qüsursuz doğulmasına yardım edir. Yaşıl tərəvəzlərin, meyvələrin və qozların tərkibində təbbi B vitamini var ki, bu da orqanizmdə yeni, sağlam hüceyrələrin əmələ gəlməsinə yardım edir. B vitamini də daxil edilməklə, tərkibində fol turşusu olan vitaminlərin körpələrin mərkəzi sinir siteminin əsası olan neytral borunun formalaşmasında qüsurları aradan qaldırdığı üçün hamiləlikdən əvvəl qəbul edilməsi məsləhət görülür.

Araşdırmaların nəticələri hamiləyiyin ilk çağlarında B vitamini qəbul edən anaların körpələrində autizm xəstəliyin riskinin 40 faiz azaldığı, lakin hamiləliyin orta çağlarında B vitamini qəbul edənlərdə körpənin autizmlə doğulma riskinin azalmadığını göstərib. B vitamini körpələrin qüsurla doğulmasının qarşısını alır və gələcəkdə məntiqi analizlərinin daha güclü olmasını təmin edir.

## Zlatan İbrahimoviç "Los-Anceles Qelaksi" ilə müqavilə imzalayıb




İngiltərənin "Mançester Yunayted" futbol klubunun hücumçusu Zlatan İbrahimoviç ABŞ-ın "Los-Anceles Qelaksi" komandası ilə müqavilə bağlayıb. Sport-express.ru saytı xəbər verir ki, isveçli hücumçu sözləşməni yanvarın əvvəlində imzalayıb. Onun "qırmızı şeytanlar"la hazırkı anlaşması bu ilin iyununadək nəzərdə tutulub. Bu səbəbdən, 36 yaşlı forvardın cari mövsümün sonunda MLS klubuna keçəcəyi ehtimal olunur.

Transfer baş tutsa İbrahimoviç Amerika liqasının ən yüksək ödənişli oyunçusu olacaq. Təcrübəli hücumçu 7,7 milyon dollar qazanacaq. Qeyd edək ki, Z.İbrahimoviç cari mövsümdə 7 oyunda meydana çıxıb və bir dəfə fərqlənib.

## On cüdoçumuz beynəlxalq reytinq cədvəlində ilk iyirmilikdə yer alıb



Beynəlxalq Cüdo Federasiyası yeni reytinq cədvəlini açıqlayıb. Azərbaycan Cüdo Federasiyasından AZƏRTAC-a verilən xəbərə görə, siyahını millimizin aparıcı idmançıları üçün uğurlu hesab etmək olar.

Yığmamızın əsas cüdoçularının hamısı mövqeyini qoruyub. Onlardan 10-u ilk 20-likdə yer alıb. Belə ki, Orxan Səfərov (60 kq) yenə 7-ci, Nicat Şıxəlizadə (66 kq) 14-cü, Rüstəm Orucov 3-cü, Hidayət Heydərov (hər ikisi 73 kq) 4-cü, Məmmədəli Mehdiyev (90 kq) 11-ci, Tural Səfquliyev (90 kq) 17-ci, Elxan Məmmədov 4-cü, Elmar Qasımov (hər ikisi 100 kq) 6-cı, Uşanqi Kokauri (100 kq-dan yuxarı) 18-ci, qadınlar arasında isə İrina Kindzerska (78 kq-dan yuxarı) 7-ci pillədə qərarlaşıb.

## Məsut Özil "Arsenal"la müqaviləni uzatdı



"Arsenal" futbolçusu Məsut Özillə müqaviləni yeniləyib. Qol.az-ın BBC-yə istinadən yaydığı xəbərə görə Almaniya millisinin üzvü 2021-ci ilin iyun ayına qədər London klubunda çıxış edəcək.

Yeni müqavilənin şərtlərinə əsasən Özil həftəyə 350 min funt sterlinq qazanacaq. Bununla da türkəsilli yarımmüdafiəçi klub traixində ən yüksək ödənişli futbolçu olub. Qeyd edək ki, 29 yaşlı futbolçu 2013-cü ildən "topçular"da çıxış edir.

## Obameyanq rəsmən "Arsenal"da




"Borussiya"nın futbolçusu Pyer-Emerik Obameyanqın "Arsenal"a keçidi rəsmiləşib., Bu barədə London klubunun saytı xəbər yayıb. Dünən qabonlu hücumçu ilə uzunmuddətli müqavilə imzalanıb. Müqavilənin müddəti və şərtləri açıqlanmayıb. Britaniya mətbuatı "Arsenal"ın bu transfer üçün Dortmund klubuna 63 milyon avro ödədiyini yazıb. Qeyd edək ki, 2013-cü ildən Dortmund klubunda çıxış edən Obameyanq bu mövsüm 24 oyuna 21 qol vurub.

## Samir Nəsri "Antalyaspor"dan ayrılıb



"Antalyaspor"un futbolçusu Samir Nəsri komandadan ayrılıb. Qol.az-ın məlumatına görə, bu barədə klubun mətbuat xidmətinin rəhbəri Cumhur Arıcı Türyikə mətbuatına açıqla verib. O, fransalı yarımmüdafiəçinin müqailəsinə qarşılıqlı razılıq əsasında xitam verildiyini bildirib. Qeyd edək ki, S.Nəsri ötən ilin avqust ayında "Mançester Siti"dən "Antalyaspor"a keçmişdi.

## ELAN

**Şabran rayon Polis Şöbəsi tərəfindən 05.08. 2014-cü il tarixdə Əliməmmədov Ülvi Süleyman oğlunun adına verilmiş şəxsiyyət vəsiqəsi (AZE № 14070183) itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**